# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

10 İYUN 2020-ci il

№ 91 (4222)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «SOÇİ DƏ ERMƏNİSTAN ƏRAZİSİDİR» - ERMƏNİLƏRİN ƏRAZİ İDDİALARI MƏRƏZİNƏ QARŞI RUSİYADA MARAQLI KAMPANİYA...

■ səh. 7 ■

İşğal altındakı ərazilərin daha bir hissəsi Azərbaycana qaytarılır - Paşinyanın dayaqlarının sarsılmasında Kremlin həlledici həmləsi...

■ səh. 9 ■

Genişlənən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı Ermənistanda yeni siyasi təlatümə yol açdı

■ səh. 8 ■

Polisin başına göydən zir-zibili tökənlərlə başqa necə rəftar oluna bilərdi ki...

■ səh. 3 ■

Koronavirusla bağlı həftəsonu qayda sərtləşməsinə radikal düşərgədə ziddiyyətli mövqe - bəzilərinin səsi çıxmadı...

■ səh. 10 ■

Paşinyan onun komandasından qaçan nazirlərin dalınca nələr danışır...

■ səh. 7 ■

Milli Şura sosial şəbəkədə özünü "batıra-batıra gedir" - lağ-lağılar, "kələ" söhbətləri...

■ səh. 10 ■

Avropa bu dəfə diqqətini Azərbaycanın tranzit imkanları üzərində cəmləyir

■ səh. 12 ■

Yerli istehsalımız da var artıq - maska əvvəlki 10 qəpik qiymətinə niyə qayıtmır...

■ səh. 13 ■




■ səh. 4-5 ■

## Doqquz rayon və şəhərdə 2 gün evdən çıxmaq qadağan edilir...





DİN rəhbərliyi polisə ümumvətəndaş dəstəyinə maraqlı jestlə cavab verdi...

■ səh. 3 ■

Bakıda sosial məsafə və maska taxmaq normasının pozuntusu yenə baş alıb gedir - taleyimiz yenə vətəndaş məsuliyyətsizliyindən asılı vəziyyətə qayıda bilər

■ səh. 14 ■

Ermənistanın siyasi hakimiyyətində iri məmur istefaları artır - Paşinyanı təkləyən səbəblər...

■ səh. 11 ■

■ səh. 6 ■

Azərbaycan XİN-in şikayətində maraqlı məqam - kampaniyada xarici barmaqlar ola bilərmi...



■ səh. 11 ■

"Bonus institutu" - Paşinyanın maraqlı korrupsiya mexanizmi...



■ səh. 13 ■

Emil Bayramzadə adlı "rejissor"u kimlər necə tanıyır - sosial şəbəkə yıxıb sürüyür, istedadlı sənət adamları isə...



■ səh. 15 ■

Həftəsonu karantin dövrünün dəhşətli "çörək israfçılığından" nəticə çıxarmaq lazımdır...



■ səh. 15 ■

Azərbaycanda əmanətlərin sığortalanması üzrə yeni model?...



## Prezidentin pandemiya dövründə gördüyü işlər... Ağcabədidən Ruxsarə Nəsirovanın Prezidentə müraciəti...

**Ağcabədi rayonundan Prezident İlham Əliyevə müraciət ünvanlayan Nəsirova Ruxsarə Rasim qızı qeyd edir ki, Prezidentin pandemiya dövründə gördüyü işlər ziyalıları çox sevindirir.**



"…Gənclərlə, şagirdlərlə görüşlərimizdə ürəkdolusu danışmağa, misallar çəkməyə, saysız-hesabsız nümunə göstərməyə kifayət qədər faktımız olur. Bütün bu işlər Sizin gərgin zəhmətinizin, əzmkarlığınızın, xalqa olan sevginizin nəticəsidir. Hazırda dünyamızın çox ağır bir vəziyyətlə üzləşdiyi, amansız xəstəliklə mübarizə apardığı vaxtda ölkəmizdə dərhal qabaqlayıcı tədbirlərə başlandı. Əhaliyə dəfələrlə çağırışlar etdiniz, bizi bu çətin durumda bir-birimizə dəstək olmağa, dünyanı sarsıdan görünməz düşmənə birlikdə qalib gəlməyə səslədiniz. Sizin xalqın yanında olmağınız, onu gözləyən təhlükəyə görə keçirdiyiniz narahatlıq, bununla bağlı həyata keçirdiyiniz tədbirlər Sizə olan inamı daha da artırdı.

İyunun 3-də Ağcabədi rayonuna səfəriniz bizi çox sevindirdi. Ağcabədi rayonunun Sarıcalı kəndində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün vəsaitin ayrılması təhsilimizə, gələcəyimizə göstərdiyiniz qayğının nümunəsi idi və bu, biz ziyalıları çox sevindirdi"- deyə Ağcabədi sakini qeyd edir.

*Baki-xeber.com*

## "Sanki dağa söykənmişik" - Gəncədən təqaüdçü müəllimə Babayeva Sevil xanım Prezidentə daha nə yazdı...

**"Sizin söylədiyiniz "İnsanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür" sözləri bizi ruhlandırır.**

Sanki dağa söykənmişik. Mehriban xanım Əliyevanın xalqımıza bir ana, bacı, nənə kimi müraciət etməsi və müraciətlərinin sonunda "Sizin Mehriban" imzasını qoyması ən xoş sözlərə layiqdir. Bu sözlərin, gördüyünüz işlərin əks-sədası çox-çox uzaqlara gedib çıxır. Bu sözlər, bu xoş münasibət bizə ən yaxşı valideynləri, ailə üzvlərini xatırladır.

...Bacıma söylədim ki, bu çətin pandemiya dövründə mən Prezidentimizi düşündüyümdən də güclü, bacarıqlı, xalqı üçün fədakarlıq nümayiş etdirən gördüm. Bacım isə cavab olaraq mənə dedi: "O, müdrik şəxsiyyətin, Ulu Öndərin oğludur. Elə də olmalıdır".

Bu sözləri Gəncə şəhərindən təqaüddə olan müəllimə Sevil Babayeva Prezident İlham Əliyevə müraciətində qeyd edib.

*Baki-xeber.com*

## DİN vətəndaşla mübahisə edən polisin işdən çıxarılmasına münasibət bildirdi

**Daxili İşlər Nazirliyi (DİN) Yasamalda polisin vətəndaşa qarşı nalayiq ifadələr işlətməsi məsələsinə münasibət bildirib.**



Nazirliyin Mətbuat Xidmətindən baki-xeber.com-a bildirilib ki, iyunun 7-də Yasamal rayonunda gücləndirilmiş karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşlarının üzərinə məişət əşyaları atanlar saxlanarkən çəkilmiş videogörüntülər araşdırılıb və bu zaman əməkdaşlardan birinin bir qadınla yüksək səs tonunda danışaraq onun həyat yoldaşının ünvanına yersiz ifadələr işlətməsi müəyyən edilib ki, bu da bağışlanmaz hal kimi qiymətləndirilib.

Həmin qadın Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edilib və ondan üzr istənilib.

**Bundan sonra DİN rəhbərliyi tərəfindən həmin əməkdaşın tutduğu vəzifədən azad edilməsi və barəsində xidməti yoxlama aparılması haqqında qərar qəbul edilib.**

**Azər Abdulla və Ağa Abdullaoğlu Nəsimi rayonu Su-kanal İdarəsinin rəisi Vaqif Cəbrayıla qardaşı Vidadi bəyin vaxtsız vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!**

# Prezident İlham Əliyev və birinci xanımın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı oldu



**İyunun 9-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub.**

Bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir. Beləliklə, daha üç modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır.

Prezident İlham Əliyevə məlumat verilib ki, üç modul tipli xəstəxanadan biri Bilgəh qəsəbəsindəki 28 saylı Bilgəh birləşmiş şəhər xəstəxanasına, digər ikisi isə Sumqayıt şəhərində 1 saylı şəhər xəstəxanasına və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxanaya təhkim olunub. Hər cür şəraitin yaradıldığı, ümumilikdə 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həkim kollektivi ilə görüşüblər.

Bundan sonra videobağlantı vasitəsilə 1 saylı Sumqayıt şəhər xəstəxanasına və Abşeron rayonundakı Saray qəsəbə xəstəxanasına təhkim edilən modul tipli xəstəxanaların açılışı olub.

Qeyd edək ki, ilk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Daha altı kompleksin isə bölgələrdə inşa edilərək istifadəyə verilməsi nəzərdə tutulur.

# Azərbaycan Müdafiə Nazirliyi Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya"nı alt-üst etdi

**David Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya" absurddur. Bu barədə Ermənistan müdafiə naziri David Tonoyanın Ermənistanda ordu quruculuğu konsepsiyasına dair çıxışı ilə bağlı "Trend"in sorğusuna cavab olaraq Azərbaycan Müdafiə Nazirliyindən bildiriblər.**




Qeyd edilib ki, Ermənistan müdafiə naziri David Tonoyanın "ordu quruculuğu konsepsiyasına dair" fikirlərinə münasibət bildirərkən, ilk növbədə, qeyd etmək lazımdır ki, bu, son günlər Ermənistanda yüksək vəzifəli hərbçilərin tutduqları postlardan azad edilməsi fonunda onun öz kreslosunu qoruyub saxlamaq üçün atdığı populist addımdır. Xarici dövlət borcunun dövlət büdcəsini üstələdiyi, iqtisadiyyatının isə xarici ianələr və "marafon-lar"dan əldə olunan vəsaitlər hesabına formalaşdığı bir ölkənin müdafiə nazirinin bu cür çıxış etməsi absurddur.

Belə ki, D.Tonoyanın səsləndirdiyi fikirlərin Ermənistan miqyasında praktiki olaraq həyata keçirilməsi mümkün deyil. Buna nə Ermənistanın iqtisadiyyatı, nə də hərbi potensialı imkan verir.

Ermənistanın müdafiə nazirinin daxili auditoriyaya ünvanlanmış bu fikirləri müxtəlif xarici hərbi-strateji əsərlərdən götürülmüş nəzəri fərziyyələrdən başqa bir şey deyil.

D.Tonoyanın çıxışında diqqətçəkən məqamlardan biri isə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda, qoşunların təmas xəttində yerləşdirilməsi barədə etirafıdır ki, bu da Ermənistanın işğalçı ölkə olduğunu bir daha rəsmi şəkildə təsdiq edir.

# Azərbaycanda daha 315 nəfər koronavirusa yoluxdu, 229 nəfər sağaldı, 5 nəfər öldü

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 315 yeni yoluxma faktı qeydə alınıb, 229 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış beş nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 8191 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 4606 nəfər müalicə olunaraq sağalıb, 98 nəfər vəfat edib, 3487 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 349200 test aparılıb.

**Həftəsonu ikigünlük karantin rejimi müddətində bəzi vətəndaşlar tərəfindən müəyyən neqativ hallara yol verilsə də, vətəndaşların böyük əksəriyyəti qərara əməl edərək, yaşayış yerlərini tərk etmədi, tam olaraq sosial təcrid qaydalarına riayət olundu. Məlum olduğu kimi, Daxili İşlər Nazirliyi buna görə vətəndaşlara təşəkkür edib. Bu barədə Daxili İşlər Nazirliyi (DİN) vətəndaşlara müraciətində bildirib.**

# DİN rəhbərliyi polisə ümumvətəndaş dəstəyinə maraqlı jestlə cavab verdi...



## *Müşfiq Ələsgərli: "DİN Azərbaycan vətəndaşlarına təşəkkür edib, xüsusi karantin rejiminin tələblərinə riayət etdiyinə görə əhaliyə minnətdarlıq bildirilib"*

"Əziz vətəndaşlar!

Xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar ötən həftənin şənbə və bazar günlərində sizlərə yaşayış yerini və olduğu yeri tərk etmək qadağan edilib. Sizin sağlamlığınız naminə atılan bu addımları anlayışla qarşıladığınıza görə, xüsusi karantin rejiminin tələblərinə riayət etdiyinizə görə sizə daxili işlər orqanlarının bütün şəxsi heyəti adından təşəkkürümüzü bildiririk!

Siz səbr və təmkinlə iki gün evdə qalmaqla həm özünüzün, həm də yaxınlarınızın sağlamlığını qorumuş oldunuz. İnanırıq ki, gələcəkdə də belə qərar verilərsə, siz yenə də eyni səbr və təmkin nümayiş etdirəcəksiniz".

Polisə ümumvətəndaş dəstəyinə maraqlı jestlə cavab verən DİN-in bu addımını necə qiymətləndirmək olar?

Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə bildirdi ki, DİN-in bu jesti vətəndaşlar tərəfindən yüksək dəyərləndirilir. "İyunun 8-də insanlarda aqressiya meyli var idi, Yasamal rayonunda polislə bağlı baş verən insidentə dair sosial şəbəkələrdə elə paylaşımlar edilmişdi ki, insanlarda çaşqınlıq yaratmışdı. Həmin görüntülərin məqsədi cəmiyyətdə parçalanma yaratmaq, insanları polislə, dövlət strukturları ilə üz-üz qoymaq idi. Etiraf edək ki, çox məharətlə işlənmiş təxribat planı idi. İnsanlarda tərəddüd var idi. Düzdür, əksəriyyət deyirdi ki, polisə qarşı ləyaqətsiz davranmaq, başına zibil atmaq yolverilməzdir. Bu hala yol vermiş şəxslər cəzalandırılmalıdır. Amma həmin yersiz hərəkətləri törədənlərin zərərsizləşdirilməsi prosesi də sosial şəbəkələrdə göstərilən formada olmamalıydı. İndi bəlli olur ki, belə fikir parçalanmasının, ikitirəliyin yaranması üçün müəyyən müdaxilələr olub, sosial şəbəkələrdə kəsilmiş, doğranmış, kontekstdən çıxarılmış videogörüntülər yayılıb. İstənilən mürəkkəbliyin aydınlaşması üçün sadəcə bir qədər təmkinli davranmaq lazımdır. Çox qısa zaman kəsiyində DİN lazımi addımları atdı. İyunun 7-də Yasamal rayonunda polis əməkdaşlarının üzərlərinə məişət əşyaları atanlar saxlanarkən çəkilmiş videogörüntülər araşdırılıb. Polis əməkdaşlarından birinin zərərsizləşdirilən şəxsin ailəsilə yüksək səs tonunda danışması, yersiz ifadələr işlətməsi müəyyənləşdirilib. Bu, bağışlanmaz hal kimi qiymətləndirilib. Həmin qadın Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edilib və ondan üzr istənilib, yanlışa yol vermiş əməkdaş isə DİN rəhbərliyi tərəfindən tutduğu vəzifədən azad edilib. Paralel olaraq DİN Azərbaycan vətəndaşlarına təşəkkür edib, xüsusi karantin rejiminin tələblərinə riayət etdiyinə görə əhaliyə minnətdarlıq bildirilib. Bu, çox zəruri addım idi və DİN rəhbərliyi o addımı atmaqla qarşılıqlı etimadı zədələmək istəyən şəxslərə lazımı cavabı verdi.

*"Güvənc qarşılıqlıdır, insanların dövlətə, hakimiyyətə güvənci olduğu kimi, dövlətin də xalqa güvənci var"*

Azərbaycanda insanların dövlətə güvənci var və bu güvənc təsadüfən yaranmayıb, illər uzunu, proseslərin gedişində formalaşıb. Güvənc qarşılıqlıdır, insanların dövlətə, hakimiyyətə güvənci olduğu kimi, dövlətin də xalqa güvənci var. Onca təzyiqin qarşısında Azərbaycan dövlətini ayaqda tutan, müstəqil siyasət yürütməsini stimullaşdıran amillərdən biri də belə qarşılıqlı güvəncdir. Həmin güvəncin formalaşmasında Azərbaycan polisinin də xidmətləri var. Azərbaycan polisinin şərəfli xidmət tarixi var, o şərəfli xidmət bu gün də davam edir. Pandemiya dövründə polislərimizin fəaliyyəti göstərdi ki, onlar öz tarixi ənənələrini davam etdirirlər" - deyə M.Ələsgərli vurğuladı.

***İradə SARIYEVA***

**İyunun 7-də Yasamal rayonunda gücləndirilmiş karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşlarının üzərinə məişət tullantıları atanlar saxlanarkən çəkilmiş videogörüntülər araşdırılıb və bu zaman əməkdaşlardan birinin bir qadınla yüksək səs tonunda danışaraq onun həyat yoldaşının ünvanına yersiz ifadələr işlətməsi müəyyən edilib ki, bu da bağışlanmaz hal kimi qiymətləndirilib.**

# Polisin başına göydən zir-zibili tökənlərlə başqa necə rəftar oluna bilərdi ki...




## *İsmayıl Ağayev: "Dünyanın ən inkişaf etmiş ölkələrində belə polisə qarşı olunan tabesizliyə sərt cavab verilir"*

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, həmin qadın Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edilib və ondan üzr istənilib. Bundan sonra DİN rəhbərliyi tərəfindən həmin əməkdaşın tutduğu vəzifədən azad edilməsi və barəsində xidməti yoxlama aparılması haqqında qərar qəbul edilib.

Göründüyü kimi, DİN rəhbərliyi polisin qanunsuz əməlinə dərhal reaksiya verib. Ancaq biz müşahidə edirik ki, sosial şəbəkələrdə bəzi radikal dairələr Yasamalda polisin apardığı bütün əməliyyata kölgə salmaq istəyir. Təbiidir ki, polisə qarşı olunan zorakılıq və polisin davranışları da ciddi araşdırılmalıdır. Bu məsələ ilə bağlı uzun müddət polis orqanlarında müxtəlif vəzifələrdə çalışmış İsmayıl Ağayevlə əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu hadisələrin baş verdiyi dönəmə də fikir verilməlidir:"Unutmayaq ki, hadisələr xüsusi karantin rejimi dönəmində yaşanıb. Bu vəziyyətə nəzarət polisə tapşırılıbsa, polis qanunauyğun davranmalıdır. Hadisənin xronologiyasına fikir verək. Polis karantin qaydalarını pozan bir cavan oğlanı maşına mindirmək istəyir. O müqavimət göstərir, amma biz görürük ki, heç həmin vaxtda belə polislər onunla sərt davranmırlar. Həmin binalarda yaşayan bəziləri polislərə qarşı təxribata əl atdı. Nümayişkaranə şəkildə əhalini polisləri daş-qalaq etməyə çağırdılar. Bəziləri də emosiyaya qapılıb, həmin addımları atdılar. Gəlin bir faktı da etiraf edək. Adi günlərdən birində də kimlərsə polisin başına zibil atsaydı, onunla bağlı da tədbir görüləcəkdi. Amma əməliyyatın bir qədər geniş miqyasda aparılmasını şərtləndirən amillərdən biri baş verən hadisənin təsadüf etdiyi zamandır. Bunu da unutmaq lazım deyil. Biz faktiki olaraq müharibə şəraitində yaşayırıq. Virusu da bir düşmən zənn etməliyik. Belə məqamlarda nizam-intizam möhkəm olmalıdır. Dünyanın ən inkişaf etmiş ölkələrində belə polisə qarşı olunan tabesizliyə sərt cavab verilir. Burada isə söhbət müqavimətdən gedirdi. Ancaq bütün bunlar heç də polisin qanunsuz davranışlarına əsas vermir. Oradakı bəzi polislərin əməlləri doğrudan da xalqda qıcıq yaratdı. Məndə olan məlumata görə, həmin polislərlə bağlı araşdırma aparılır və bəziləri barəsində hətta cəzalandırma da olub".

Sabiq polis rəisinin sözlərinə görə, xüsusilə də qadınla kobud rəftar edən polisin əməllərində ciddi qanunsuzluq var:"Heç kimi təhqir etmək olmaz. Polis orda qadına deyir ki, sən də, ərin də dovşansız. Olmaz belə ifadələr işlətmək. Kim qanunu pozubsa, onu qanunların imkan verdiyi səviyyədə cəzalandırmaq gərəkdir. Bəzi polis işçilərinin məsuliyyətsiz davranışları uzun illərdən bəri formalaşan vətəndaş-polis münasibətlərinə ciddi zərbə vura bilər. Mən DİN rəhbərliyinə təşəkkür edirəm ki, yalnız vətəndaşların deyil, həm də qanunu pozan polislərin cəzalandırılması ilə bağlı qərar qəbul edib".

***Məhəmmədəli QƏRİBLİ***

# Doqquz rayon və şəhərdə 2 gün evdən çıxmaq qadağan edilir...

**Azərbaycan Respublikası ərazisində yeni nov koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilib və son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq, ölkə üzrə xüsusi karantin rejiminin 1 iyul 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verilib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, Azərbaycanda virusa ilk yoluxma faktının qeydə alındığı tarixdən bu günədək COVID-19 testi musbət çıxmış 8191 nəfər aşkarlanıb, hazırda isə 3487 aktiv xəstə müalicəsini xüsusi karantin rejimli xəstəxanalarda davam etdirir.

Ölkə üzrə sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edilib. Bu baxımdan, COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək.




Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah aşağıdakıları qərara alır:

o 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda, ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılır (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti, həmçinin, onların əməkdaşlarına məxsus şəxsi avtomobillərin, eyni zamanda, yaxın qohumlarının dəfnində iştirakla əlaqədar vətəndaşların şəxsi avtomobillərinin hərəkəti istisna olmaqla);

o 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir;

o sakinlər qeyd olunan müddətdə Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almaqla tərk edə bilər.

2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yalnız aşağıdakı qurum və xidmətlərin fəaliyyətinə icazə verilir:

o siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;

o hüquq-mühafizə və hərbi xidmət nəzərdə tutulmuş orqanların fəaliyyəti;

o xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;

o sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən, əqli və hissiyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;

o kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);

o elektrik enerjisinin istehsalı və təchizatı;

o meliorasiya və su təsərrüfatı;

o rabitə xidmətləri;

o teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;

o dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;

o boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;

o fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);

o neft və qazın hasilatı, emalı, saxlanması və satışı;

o çörək məhsullarının istehsalı (2020-ci il 15 iyun saat 16:00-dan etibarən);

o fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər.

Müəyyən olunmuş tarixlər üzrə fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslər, onların xidməti və şəxsi avtomobillərinin hərəkətinə işəgötürən tərəfindən məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək. Fəaliyyətinə icazə verilən qurumlar, eyni zamanda, dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin, fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçilərini məhdud sayda cəlb etməklə tənzimlənəcək.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar.

COVID-19 virusu ilə mübarizədə, insanların sağlamlığı və təhlükəsizliyinin qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərdə həmrəylik nümayiş etdirdiklərinə görə vətəndaşlarımıza bir daha təşəkkür edir, özünüzün və yaxınlarınızın səhhəti naminə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına əməl etməyə çağırırıq.

Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, digər günlərdə 65 yaşdan yuxarı insanların ciddi zərurət olmadan yaşayış yerlərindən və ya olduğu yerlərdən çıxmamaları tövsiyə olunur. Eyni zamanda, kütləvi yoluxma hallarının qarşısının alınması məqsədilə xüsusi karantin rejimi müddətində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağanı-na, qoruyucu vasitələrdən istifadə edilməsi qaydalarına ciddi əməl olunması tələb edilir.

*(Ardı 5-ci səh.)*

*(Əvvəli 4-cü səh.)*

Dünən, həmçinin, Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla bağlı KİV nümayəndələri üçün brifinq keçirib. Brifinqdə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı jurnalistləri maraqlandıran suallara cavab verib.




**Daxili uçuşlar iyunun 15-dən bərpa olunur**

İ.Məmmədov deyib ki, daxili uçuşlar iyunun 15-dən bərpa olunacaq. Onun sözlərinə görə, ilk olaraq Naxçıvana uçuş olacaq: "Uçuş zamanı qaydalara nəzarət olunacaq. Xaricdən Azərbaycana çarter uçuşlar da davam edir. Dağıstandan bu gün 130 nəfər gətirilərək karantinə alınıb. İyunun 10-da isə Nyu-Yorkdan 210 nəfər Bakıya gətiriləcək. Xaricdə olan vətəndaşlarımızın gətirilməsi prosesi mərhələli şəkildə davam edəcək".

**Sərhədlərin bağlı qalma müddəti uzadıldı**

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri qeyd edib ki, dövlət sərhədindən giriş-çıxış qadağası 1 iyula qədər uzadılır: "İnfeksiyanın yayılması hallarının artması buna şərait yaradır. Yük daşımaları və çarter reysləri istisna olunur".

Ramin Bayramlı isə bildirib ki, ötən həftə sərt karantin günlərindən əvvəl çörək satışı ilə bağlı müəyyən problemlərin olduğunu gördük. Onun sözlərinə görə, insanlar bir qədər təşvişə düşmüşdü: "Ümid edirik ki, bir daha belə hallarla rastlaşmayacağıq".

**Şənbə günlərində 65 yaşdan yuxarı vətəndaşlar evdən çıxmasınlar**

R.Bayramlı bu həftənin cümə günündə dövlət müəssisələrində qısa iş günü olmayacağını deyib. Onun sözlərinə görə, bəzi müəssisələrdə iş şənbə günləri də adi qaydada olacaq: "Tövsiyə edirik ki, şənbə günlərində 65 yaşdan yuxarı vətəndaşlarımız evdən çıxmasınlar. Ötən dəfə dializ xəstələri ilə bağlı müəyyən problem yaranmışdı. Amma bu həftə tibb müəssisələrində şənbə günlərində adi rejim olduğundan, dializ xəstələri də həmin gün dializ oluna biləcəklər".

TƏBİB sədri qeyd edib ki, Azərbaycanda görülən tədbirlər nəticəsində koronavirusa yoluxan xəstələr arasında letallıqla nəticələnən hallar az baş verir. Onun sözlərinə görə, hazırda xüsusi rejimli xəstəxanalarda 3487 aktiv koronavirus xəstəsi müalicə edilir. Onların 136 nəfəri reanimasiya şöbəsindədir.

R.Bayramlı qeyd edib ki, test müayinəsi nəticəsində COVID-19 virusu aşkarlanmayan, amma klinikası COVID-19-a xas olan əlamətlərin müşahidə edildiyi xəstələr də var: "Onlar arasında vəziyyəti ciddi olanlar da var. Belə şəxslər COVID-19-un protokoluna uyğun olaraq müalicə edilirlər".

**Yoluxma halları artmaqda davam edir…**

"Koronavirusa yoluxma hallarının sayında kumilyativ artım davam etməkdədir, yoluxanların sayı narahatedicidir" deyən R.Bayramlının sözlərinə görə, yeni yoluxanlarla sağalanlar arasında fərq heç də arzuolunan səviyyədə deyil: "Eyni zamanda, ağır vəziyyətdə olan xəstələrin də sayı artıb. 18-24 may tarixlərində 848 yeni yoluxan olmuşdu. Ondan sonrakı həftə ərzində 1372 yeni yoluxma olub. Həmin müddətdə yoluxanların sayı sağalanların sayından çox olub".

R.Bayramlı qeyd edib ki, son həftələr ərzində koronavirus testi təkrar pozitiv çıxan xəstələrin sayı çoxalır. Buna görə də sağalan xəstələrin sayı azalır: "Güman edirik ki, virus insandan insana nə qədər çox yoluxursa, o qədər mutasiya edir. Buna görə də müalicəyə tabe olmayan halların sayında artım baş verə bilər".

**Əgər vətəndaşlar həmrəylik nümayiş etdirməsələr…**

TƏBİB sədri bildirib ki, Bakı şəhərində koronavirusa yoluxma göstəricisi 43-46 faizədək müşahidə edilirdisə, bu faiz artıq 50 faizə yaxınlaşır. Onun sözlərinə görə, infeksiyanın yayılmasını nəzarət altında saxlamasaq, çox sürətlə say artımını görəcəyik: "Biz inkişaf etmiş ölkələrdə də bu vəziyyəti gördük. Səhiyyəsi nə qədər inkişaf etsə belə, xəstəliyin yayılması kontrol altında saxlanmasa, tibb müəssisələri onun öhdəsindən gələ bilməz".

R.Bayramlı qeyd edib ki, tibb müəssisələri virusu vaxtında aşkarlamağa, vətəndaşlar isə mövcud qaydalara əməl etməyə borcludurlar: "Əgər vətəndaşlar həmrəylik nümayiş etdirməsələr, çox ciddi fəsadlar yarana bilər".

**Yas məclisləri kütləvi yoluxmalara səbəb olur**

TƏBİB sədri bildirib ki, çox təəssüf ki, yas yerlərində kütləvi toplaşma və maskalardan istifadə etməmə halları kifayət qədərdir. Onun sözlərinə görə, yas məclislərində iştirak insanlar arasında kütləvi yoluxmalara səbəb olur: "Çox xahiş edərdik ki, insanlar mövcud qaydalara əməl etsinlər".

**Gənc yaş qruplarında koronavirusa yoluxma faizi artır**

R.Bayramlı qeyd edib ki, gənc yaş qruplarında koronavirusa yoluxma faizi və xəstəliyi ağır keçirənlərin sayı artır. Onun sözlərinə görə, əvvəl yanaşı gedən xəstəlikləri olanlar bu xəstəliyi ağır keçirirdi: "Amma çox təəssüf ki, indi artıq gənclər də bu xəstəliyi ağır keçirirlər. Onların arasında həkim həmkarlarımız da var".

**Asimptomatik xəstələrin evdə müalicəsinə qərar verilə bilər**

TƏBİB sədri qeyd edib ki, asimptomatik xəstələrin evdə müalicəsi ilə bağlı qərar qəbul edilə bilər. Onun sözlərinə görə, indiyədək bütün xəstələr xəstəxanalarda müalicə ediliblər: "Asimptomatik xəstələrin evdə müalicəsi ilə bağlı məlumatlar veriləcək. Bizi narahat edən odur ki, belə xəstələr evdə müşahidədən kənara çıxa və infeksiyanı başqalarına yoluxdura bilərlər. Buna görə də onlara xüsusi iltizamnamə imzaladılacaq".

**Dövlət qurumlarında koronavirusa yoluxma halları...**

"Təəssüflər olsun ki, dövlət qurumlarında da koronavirusa yoluxma halları var" deyən R.Bayramlının sözlərinə görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 7, Prezident Administrasiyasında 19, Fövqəladə Hallar Nazirliyində 5 nəfərin bu virusa yoluxduğu müəyyən edilib.

R.Bayramlı bildirib ki, Azərbaycanda koronavirusun mövcudluğuna inanmayanların sayı çoxluq təşkil etmir. Onun sözlərinə görə, ölkədə virusa inanmayanlar da var: "Bu istiqamətdə maarifləndirici tədbirlər görülməlidir ki, insanlar ona inansınlar. İnanmamaqla özümüzü və yaxınlarımızı risq qarşısında qoya bilərik".

**Xaricdən vətəndaşlar mərhələlərlə ölkəyə gətirilir**

İ.Məmmədov isə bildirib ki, hazırda vətəndaşların ölkəyə gətirilməsi ilə bağlı qrafik hazırlanır. Onun sözlərinə görə, hazırda qrafik tamamlanandan sonra ilk öncə MDB və Yaxın Şərq ölkələrində olan vətəndaşlarımız ölkəyə gətiriləcək: "3-cü mərhələdə isə Avropa ölkələrindəki vətəndaşlarımız gətiriləcək. Gətirilən vətəndaşlar karantinə alınacaq"

**Rayonlara gediş-gəlişin bərpası...**

İ.Məmmədov rayonlara gediş-gəlişin bərpasının gündəmdə olmadığını deyir. Onun sözlərinə görə, bu məsələyə hələ indiki mərhələdə baxılmır: "Ayın 15-dən etibarən Naxçıvandan reyslərə icazə veriləcək. Hələlik bu reyslər həftədə 2 dəfə həyata keçiriləcək. Növbəti mərhələdə isə reyslərin sayı artırıla bilər".

**Onlayn medianın sərt karantin günlərində işləməsinə icazə verilmir**

İ.Məmmədov onlayn medianın sərt karantin günlərində işləməsinə icazə verilmədiyini deyib. Onun sözlərinə görə, həmin günlərdə yalnız məhdud sayda televiziya və radio işçilərinin fəaliyyətinə icazə verilir: "Onlayn medianın evdən işləməsi mümkündür. Ona görə də həmin şəxslər evdən işləyə və həftənin 1-ci günündən fəaliyyətlərini bərpa edə bilərlər".

**Sərt karantin günlərində kimlər şəxsi avtomobillərdən istifadə edə bilər...**

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri bildirib ki, bu həftə tətbiq ediləcək sərt karantin rejimində fəaliyyətinə icazə verilən şəxslərin işə gedib-gəlmək üçün şəxsi avtomobillərindən istifadəsinə icazə veriləcək.

Onun sözlərinə görə, həmin şəxslər iş yerlərinə gedib-gələ bilərlər: "Həmçinin, yaxın qohumunun dəfn mərasimində iştirak etmək istəyən şəxslər də şəxsi avtomobillərdən istifadə edə bilərlər. Digər şəxslərin isə hərəkəti qadağandır".

**Qeyd edək ki, hazırkı dövrədək ölkəmizdə 7876 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 4377 nəfər müalicə olunaraq sağalıb, 93 nəfər vəfat edib, 3406 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.**

# Azərbaycan XİN-in şikayətində maraqlı məqam - kampaniyada xarici barmaqlar ola bilərmi...

***Azər Həsrət:** "Birmənalı şəkildə deyirəm ki, bunun arxasında erməni təbliğat maşını dayanır"*

**Xarici İşlər Nazirliyi son vaxtlar qurum barədə yayılan böhtan xarakterli informasiyalarla bağlı Dövlət Təhlükəsizlik Xidmətinə müraciət edib. Qurumun mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib:**

"Öncə vurğulamaq istərdim ki, Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi olaraq şəxsi məsələləri şərh etmirəm və bu barədə əvvəl də bildirmişəm. Lakin son günlərdə Xarici İşlər Nazirliyinə qarşı bilərəkdən yalan və böhtan kampaniyasının aparıldığını müşahidə edirik. Bu qarayaxma kampaniyasının araşdırılması və müvafiq tədbirlərin görülməsi məqsədilə tərəfimizdən Dövlət Təhlükəsizliyi Xidmətinə rəsmi müraciət edilib. Vətəndaşın şərəf və ləyaqəti ölkəmizdə Konstitusiya və digər qanunvericilik aktları ilə qorunur. Heç bir halda ifadə azadlığı vətəndaşın şərəf və ləyaqətini ləkələmək hüququ vermir. Şəxsi həyata müdaxilə edərək təhqir və böhtan xarakterli məlumatları yayanlar məsuliyyətə cəlb olunmalıdırlar.

Xarici İşlər Nazirliyinin həyata keçirdiyi vəzifələr strateji əhəmiyyətlidir və bilərəkdən bu mühüm dövlət orqanı barədə yalan və qərəzli məlumatların dövriyyəyə buraxılması dövlətin milli maraqlarını ciddi təhdid etməklə yanaşı, müstəqil respublikamızın beynəlxalq nüfuzuna da xələl gətirir. Bu səbəblərdən qarayaxma kampaniyasının araşdırılmasını və Azərbaycan qanunvericiliynə uyğun olaraq müvafiq tədbirlərin görülməsini zəruri hesab edirik".

Olduqca strateji bir qurum barədə böhtan kampaniyanın aparılması iddiası ilə şikayətin edildiyi ünvan da maraqlı görünür. XİN-in kampaniya ilə bağlı polis və məhkəməyə yox, məhz DTX-ya şikayət ünvanlaması maraqlı sual ortaya çıxarır: bu kampaniyanın arxasında xarici amillərin təsiri və rolu ola bilərmi?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda üzdə olan siyasi xadimlər və mühüm dövlət qurumlarının gözdən salınıb diskreditə edilməsi istiqamətində bədxah qüvvələr durmadan çalışır:"Bu təsadüfi deyil. İstənilən halda, dövlət qurumunun rəhbəri ölkənin uğuru üçün çalışan adamdır. Hər hansı bir nazirin gözdən salınmasında məqsəd bütün mövcud hakimiyyəti gözdən salmaqdır. Xarici işlər naziri Elmar Məmmədyarovla bağlı baş verənlər də diqqətdən yayınmır. Onunla bağlı müxtəlif dönəmlərdə fərqli məzmunlu dezinformasiyalar yayılıb. Budəfəki hadisə də məhz o qəbildəndir. Elmar Məmmədyarovun Dağlıq Qarabağla bağlı aparılan danışıqlarda əsas fiqurlardan biri olması da burda mühüm rol oynayır. Məhz həmin danışıqlarda Azərbaycanın əlini zəiflətmək üçün bizə qarşı olanlar hərəkətə keçib. Biz baxsaq görərik ki, belə hücumların hədəfində yalnız Məmmədyarov deyil. Başqa mühüm qurumlarla da bağlı analoji təbliğat aparılır. Birmənalı şəkildə deyirəm ki, bunun arxasında erməni təbliğat maşını dayanır. Təəssüflər olsun ki, bizim insanlarımız da bunun fərqinə varmadan, həmin təbliğat maşınının materiallarını tirajlamaqla məşğul olurlar. Müraciətin niyə məhz DTX-ya edilməsi də maraqlıdır. Düşünürəm ki, bununla bu kampaniyanın arxasında duranların müəyyən olunması marağı güdülür.



Onu da asanlıqla müəyyən etmək çətin məsələdir. Birincisi, onu edənlər Azərbaycandan kənardadır. İkincisi, elə mərkəzləri müəyyənləşdirmək xüsusi operativ əməliyyatlar tələb edir. Üçüncüsü, DTX həm də məsələnin dövlətin təhlükəsizliyi üçün təhdid elementi sayılan aspektini araşdıracaq. Çünki Elmar Məmmədyarovun statusu bu şübhəyə düşməyə əsas verir. Digər qurumlar bunu dərindən araşdırmaq imkanlarına malik deyil. Çünki onların imkanları xaricdə araşdırma aparmağa çatmayacaq. DTX-nın isə buna resursu çatar. Məmmədyarov bu məsələdə sadəcə öz nüfuzunu qorumağa qalxmayıb. Düşünürəm ki, o, məhz dövlətin imicini zədələyən kampaniya ilə mübarizə apardığı üçün bu şikayəti edib. Çox düzgün addımdır. Bunun bir presedent olması da lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Mətbuat Şurası Şikayətlər üzrə komissiyanın iclasını keçirdi

**Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.**




Müşfiq Ələsgərli əlavə edib ki, ölkədə karantin rejiminin şərtlərini və pandemiya ilə bağlı durumu nəzərə alaraq, bölgələrdən verilən şikayətlərin onlayn qaydada müzakirəsinə qərar verilib.

Komissiya ilk olaraq Qax rayon ictimaiyyəti nümayəndələrinin "qax.org.az" saytına qarşı şikayətini araşdırıb. Komissiya sədri məlumat verib ki, Qax rayonunun 83 nəfər sakini adından imzalanan müraciətdə "qax.org.az" saytında mərhələlərlə dərc edilmiş 10-a yaxın materialdan şikayət olunub. Müraciət müəllifləri adından onlayn müzakirəyə qatılan 2 saylı məktəb-litseyin direktor müavini Dilşad Mustafayeva, rayon sakinləri Hümbət Məmmədov, Məhəmməd Məhəmmədov və digərləri şikayət doğuran materiallarda ayrı-ayrı təhsil, səhiyyə müəssisələrinə, dövlət, hakimiyyət orqanlarına, o cümlədən, konkret şəxslərə qarşı əsaslandırılmamış kəskin ittihamların yer tutduğunu, həmçinin, etnik separatizmə yol açan fikirlərin verildiyini bildiriblər. Belə yanaşmanın etnikmədəni qruplar arasında narazılığa səbəb olduğunu qeyd ediblər. Komissiya üzvləri materialların araşdırılması zamanı müəyyən ediblər ki, "qax.org.az" saytında yayımlanan və rayon sakinlərində şikayət doğuran materiallar birtərəfli hazırlanıb, barəsində ciddi ittihamlar səsləndirilən şəxslərin mövqeləri öyrənilməyib, onlara öz mövqelərini işıqlandırmaq üçün şərait yaradılmayıb. Beləliklə, materiallarda balans prinsipi pozulub, ittiham xarakterli faktların əsaslılığının yoxlanılmasına təşəbbüs göstərilməyib. Komissiya "qax.org.az" saytına xəbərdarlıq edərək, yol verilən qüsurların aradan qaldırılmasının zəruriliyini bildirib.

Bakı şəhər sakini, Xətai rayonunda fəaliyyət göstərən həkim-ginekoloq Aytən Səfərovanın "yenisabah.az" saytına qarşı şikayətini araşdıran komissiya müəyyən edib ki, şikayətçidə narahatlıq doğuran materiallar "yenisabah.az" saytından öncə digər xəbər portallarında da yayımlanıb. Saytın təsisçisi Elnur Məmmədli qeyd edib ki, şikayətçi tərəfindən zamanında təkzibedici açıqlamalar yayımlanmadığı üçün həmin məqamlar "yenisabah.az" saytında yayımlanmış məqalələrdə də yer tutub. Bununla yanaşı, komissiya üzvləri bildiriblər ki, sayt materialı hazırlayarkən qarşı tərəfin rəyini öyrənməyib, bununla da balans prinsipi pozulub. Komissiya tövsiyə edib ki, qarşı tərəfə öz fikirlərini ifadə etmək üçün şərait yaradılsın.

Agcabədi Rayon İcra Hakimiyyətinin "ZAMAN TV"nin xüsusi müxbiri və "DÜHA-İNDO" informasiya şəbəkəsinin rəhbəri İqbal Muğumova qarşı şikayəti də araşdırılıb. "ZAMAN TV"-nin təsisçisi Xəyal Əsgərov bildirib ki, sözügedən şikayət "ZAMAN TV"nin redaksiyasına da daxil olub. Araşdırma zamanı İqbal Muğumovun redaksiyanı bilgiləndirmədən hərəkətlər etməsi, özfəaliyyətlə məşğul olması faktları aşkarlanıb. Muğumov işdən kənarlaşdırılıb, onunla əməkdaşlıq dayandırılıb və redaksiyanın vəsiqəsi geri alınıb.

**İclasda Milli Məclisin deputatı Nurlan Həsənovun bir qrup seçicisinin adından MŞ-yə "Qərb Bölgəsi Press" qəzeti ilə bağlı ünvanlanmış şikayəti də araşdırılıb. Komissiya üzvləri müraciətin geniş şəkildə araşdırılması üçün əlavə faktlara ehtiyac olduğunu vurğulayıblar. Tövsiyə edilib ki, müraciət müəllifləri onları narahat edən materiallar barədə təfsilatlı bilgiləri Şuraya göndərsinlər.**

# "Soçi də Ermənistan ərazisidir" - ermənilərin ərazi iddiaları mərəzinə qarşı Rusiyada maraqlı kampaniya...

**Rusiyanın Soçi şəhərində yaşayan bir qadının ermənilərin "ərazi iştahına" hiddətləndiyi video sosial şəbəkədə sürətlə yayılmaqdadır. Belə ki, "Vajnıy Potok" "YouTube" kanalına istinadən yayılan məlumata görə, qadın müraciətində ermənilərin özgə torpaqlara ərazi iddialarını eşitməkdən yorulduğunu bildirib.**

*"...rus əhalisini qıcıqlandırır və məlum etiraz videosunun yayılması da bundan qaynaqlanır"*

***Məhərrəm Zülfüqarlı:*** *"Son baş verənlər isə onu göstərir ki, ermənilər artıq öz ağalarına qarşı da nankorluq edirlər"*

Qadın müraciətində deyib ki, Qarabağda artıq müharibə var: "İş o yerə çatıb ki, artıq hər yerdə "Soçi Ermənistan ərazisidir" yazırlar. Qarabağda artıq müsəlmanlarla müharibə var. Siz onların ərazisini işğal etməyi bacardınız. Qorbaçovun sayəsində Soçidə məskunlaşmısınız, bu torpaqlara da iddia edəcəksiniz? Qorbaçova təkrar müraciət etmək istəmirsiniz ki, sizi yenidən harasa apar-sın?".

Göründüyü kimi, ermənilərin ərazi iddiaları sərhəd tanımır. Harada ermənilər kompakt yaşayırlarsa, bir müddət sonra həmin ərazini "özününküləşdirmək" iddiaları ilə çıxış edirlər. Ermənistan nəinki bu ölkə ilə həmsərhəd olan dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış edir, eyni zamanda, digər ölkələrin ərazisinə də göz dikir. Şimali Qafqazın bir sıra şəhərlərində ermənilər kompakt yaşayırlar. Onlardan biri də məşhur Soçi şəhəridir. Gör erməni həyasızlığı nə həddə gəlib çatıb ki, onların ərazi iddiaları mərəzinə qarşı Rusiyadan olan qadın sərt etiraz etmək qərarına gəlib.

Məsələyə münasibət bildirən tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlının sözlərinə görə, artıq vəziyyət o yerə gəlib çatıb ki, ermənilər Rusiya ərazilərinə qarşı iddialarla çıxış edirlər: "Ermənilər Şimali Qafqazın Krasnodar və Stavropol vilayətlərində çox sıx məskunlaşıblar. Hətta bir dəfə bir rus zabiti demişdi ki, onlar Qarabağda döyüşdüyü zaman ermənilər, bir növ, Krasnodarı işğal edərək əsas yerləri tutublar. Soçiyə ermənilərin xüsusi maraq göstərməsi təsadüfi deyil. Çünki bu şəhər dəniz limanıdır, istirahət mərkəzidir, strateji obyektdir. Hətta bir neçə il əvvəl Soçidə yüksək səviyyəli tədbir



keçiriləndə hava limanında işləyən ermənilər Moskvanın göstərişi ilə işdən uzaqlaşdırıldılar. Çünki ermənilərin Soçidə aparıcı mövqedə olması artıq Rusiyanı da narahat edir.

Son baş verənlər isə onu göstərir ki, ermənilər artıq öz ağalarına qarşı da nankorluq edirlər. Yəni erməniləri Qafqaza köçürən, onlara yer verən Rusiyanın da üzünə ağ olurlar və məskunlaşdıqları ərazilərə iddia edirlər. Bu da, əlbəttə ki, rus əhalisini qıcıqlandırır və məlum etiraz videosunun yayılması da bundan qaynaqlanır. Hesab edirəm ki, gələcəkdə Rusiya imperiya siyasətini dəyişərsə, ermənilərin bu ölkədə qanunlara əməl etmədən pozuculuq fəaliyyətinə son qoyula bilər. Yoxsa, ermənilərin iddiaları dayanmayacaq".

***Vidadi ORDAHALLI***

# Paşinyan onun komandasından qaçan nazirlərin dalınca nələr danışır...

**Ermənistanda bir gündə 3 güc naziri - polis rəisi Arman Sarkisyan, baş qərargah rəisi Artak Davtyan və milli təhlükəsizlik xidmətinin direktoru Eduard Martirosyan istefa verib. Baş nazir Nikol Paşinyan artıq bu vəzifələrə yeni təyinatlar edib.**



Onik Qasparyan baş qərargah rəisi, Argişti Kəramyan milli təhlükəsizlik xidmətinin direktoru, Vahe Kazaryan polis rəisi təyin edilib. Bu təyinatlar o deməkdir ki, Paşinyan istefalara hazır idi və bəlkə də 3 istefanın bir gündə elan edilməsi onun təşəbbüsü ilə reallaşıb. Çünki Paşinyan narazı qaldığı güc nazirlərini ayrı-ayrı vaxtlarda istefaya göndərsəydi, bu, erməni cəmiyyətində daha çox suallar və hökumətin dağıldığı görüntüsü yaradacaqdı.

Nikol Paşinyan keçirdiyi brinfinqdə reallaşan istefalar barədə danışıb. Qeyd edək ki, son zamanlar Paşinyan hakimiyyəti, demək olar ki, içdən sökülür. Bundan əvvəl də onun komandasında önəmli postlar tutan şəxslərin istefalarının şahidi olduq. Baş qərargah rəisinin istefasının səbəbini onun pandemiya dönəmində oğluna toy etməsi ilə əlaqələndirirlər. Paşinyan bu istefaların səbəbini tamamilə qeyri-siyasi səbəblərlə izah etməyə çalışıb. Hətta generalın oğlunu və gəlini yeni izdivac münasibətilə təbrik etməyi də unutmayıb. Elə həmin çıxışında məmurların nizam-intizamlı olmalarının önəmini nəzərə çatdırıb. Əsində Paşinyanın brifinqdə komandasının arxasınca danışdıqlarında bir təzad var. Bir tərəfdən intizamsızlıqdan danışır, digər tərəfdən isə diqqəti hansısa toy ziyafətinə fokuslamaq istəyir. Bəllidir ki, bütün bunlar diqqəti məsələnin əsl mahiyyətindən uzaqlaçdırmağa yönəlib.

Bu günlərdə isə Paşinyan hakimiyyətinə tam etimadın itdiyini sübut edən daha bir cid-di fakt ortaya çıxıb. Ermənistan parlamentində təmsil olunan ikinci böyük siyasi qüvvənin - müxalif "Çiçəklənən Ermənistan" Partiyasının (ÇEP) sədri Qaqik Tsarukyan baş nazir Nikol Paşinyan və onun hökumətinin istefasını tələb edib. Onun fikrincə, hazırkı hökumətə vədlərini yerinə yetirmək üçün vaxt verilib, amma onlar bunu yerinə yetirməyib:"İnvestisiya yoxdur, iqtisadiyyat inkişaf etmir, koronavirusla mübarizə uğursuz oldu".

Eyni zamanda, parlamentdəki üçüncü ən böyük siyasi qüvvə olan İşıqlı Ermənistan Partiyası (İEP) da hökumətin ölkədə islahatlar aparmağa qadir olmadığını hesab edir. Paşinyan onun komandasını tərk edən məmurlar barədə nə danışsa belə, real vəziyyət göz qabağındadır. Kifayət qədər mötəbər post tutan adamlar Paşinyan hakimiyyətinin perspektivsizliyini dərk etdikləri üçün onunla hakimiyyətin məsuliyyətini bölüşmək istəmirlər. Yəqin ki, yaxın zamanlarda biz Ermənistandakı hakimiyyətin təməllərini sarsıdacaq daha ciddi proseslərin cərəyan etdiyinə şahidlik edəcəyik. Artıq mərkəzdənqaçma prosesi hakimiyyətin öz daxilində başlayıbsa, bundan Paşinyana müxalif olan qüvvələr məharətlə istifadə etməyi bacaracaq. Sabiq təhlükəsizlik nazirinin simasında biz bunu gördük. O istefa verdi və bir müddət sonra müxalif partiya təsis etdi. Son istefa verən şəxslərin də müxalifətə keçəcəyi real görünür.

***Məhəmmədəli QƏRİBLİ***

**Məlumdur ki, Azərbaycanln malik olduğu imkanlar ona xaricdən indiyə qədər böyük həcmdə hərbi texnika almağa da əlverişli zəmin yaradır. Bundan sonra da Azərbaycan böyük maliyyə imkanları hesabına texnika idxalını davam etdirməyi düşünür.**

# Genişlənən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı Ermənistanda yeni siyasi təlatümə yol açdı

Digər tərəfdən dünya ölkələri də Azərbaycanla bu sahədə əməkdaşlığa daha çox meyl edir.

Üstəlik, bəzi ölkələr hərbi texniki əməkdaşlığın dərinləşdirilməsi üçün Azərbaycana kredit xətti açmağa hazır olduqlarını da bildirir. Artıq Rusiya bu istiqamətdə marağını ifadə edib. Qardaş Türkiyə isə hətta real addımlar da atıb. Məlumat verildiyi kimi, ötən həftə Azərbaycanla Türkiyə arasında imzalanmış "Hərbi sahədə maliyyə əməkdaşlığı anlaşması" qüvvəyə minib. Bu anlaşmaya əsasən Türkiyə Azərbaycana 200 milyon lirə məbləğində kredit xətti açır və Azərbaycan həmin pulla Türkiyədən hərbi texnika, silahlar ala bilər. Türkiyədən təhlükəsizlik və terrorla mübarizə eksperti Coşkun Başbuğ deyib ki, Azərbaycan qardaş ölkədən istədiyi silahı və texnikanı ala bilər. Amma inkişaf edən texnologiyaları, yeni müharibə metodlarını və regiondakı şərtləri nəzərə alaraq Azərbaycan Türkiyədən daha çox yeni döyüş sistemləri, o cümlədən pilotsuz döyüş təyyarələri, pilotsuz kəşfiyyat təyyarələri və "Atak" hücum vertolyotları ala bilər. Hərbi və strateji məsələlər üzrə ekspert Yusuf Alabarda isə bildirir ki, Türkiyənin istehsal etdiyi silahlı və silahsız PUA-lar Dağlıq Qarabağda potensial döyüş əməliyyatlarında effektli olacaq. Çünki həm Suriyada, həm Liviyada Türkiyənin döyüş pilotsuz təyyarələri hərbi əməliyyatlar səhnəsində vəziyyəti Ankaranın xeyrinə dəyişdirə bilib.

Qeyd edək ki, Azərbaycanın Türkiyədən "Bayraktar" , "Akıncı" və digər pilotsuz aparatlar almasının gündəmdə olduğu barədə vaxtaşırı məlumatlar səslənir. Türkiyənin zərbə dronları bir müddət əvvəl Beşər Əsədin İdlibi tutmaq üçün hücum edən iri qoşun qruplaşmasını ciddi itkilərə məruz qoyub. Nəticədə Əsəd və ona dəstək verən Rusiya atəşkəsə razılaşıb. Liviyada isə Milli Birlik Hökumətinin qüvvələri qiyamçı feldmarşal Xəlifə Haftarın qüvvələrinə qarşı Türkiyənin "Bayraktar" döyüş pilotsuz aparatlarını tətbiq edərək onu ciddi itkilərə məruz qoyub. O cümlədən, Haftarın Rusiyadan aldığı 10-dan çox "Pantsir" zenith-raket kompleksləri vurulub. Nəticədə Haftarın ordusu paytaxt Tripoli üzərinə hücumu dayandıraraq geri çəkilib. Azərbaycan müdafiə naziri Zakir Həsənov mart ayında keçirdiyi xidməti müşavirədə İdlib döyüşlərinin təcrübəsinin öyrənildiyini və Türkiyədən yeni silahların alınması üçün iş getdiyini demişdi. Başqa sözlə, şübhəsizdir ki, tezliklə Türkiyə hərbi sənayesinin istehsalı olan və dünyanın aparıcı ölkələrini də təəcübləndirən, hədəfi yüksək dəqiqliklə vuran "ağıllı" raketlərlə təchiz olunmuş pilotsuz döyüş sistemləri Azərbaycan ordusunun silahlanmasında yer alacaq. Bunu isə ermənilər böyük təlaşla qarşılayır. Məsələn, separatçıların liderinin "müşaviri" Tiqran Abramyan bu halda Azərbaycanın böyük üstünlüklər qazanacağını etiraf edir:"Azərbaycanın PUA-ları və aviasiyası da cəbhə boyu uçuşlarını intensivləşdirib. İndi Türkiyədən yeni silah partiyaları alınsa, Azərbaycan bizə qarşı daha sərt davranacaq". Onu da qeyd edək ki, Türkiyənin pilotsuz uçan aparatları, ümumiyyətlə, müxtəlif ölkələrdə müzakirə mövzusu olub. Amma hazırda Ermənistan bundan ciddi narahatlıq keçirir. Türkiyənin aparıcı dron istehsalçıyısı isə "Baykar Makina" şirkətidir. Məhşur "Bayraktar TB2", "Akıncı", ANKA, ANKA-S, "Alpagu", "Karqu", "Sərçə" zərbə və kəşfiyyat PUA-ları məhz burada istehsal edilir. Azərbaycanın bu dronların alışını həyata keçirməsi isə tamamilə mümkün sayılır. Ekspertlər hesab edir ki, əslində bu dronların alışı vacibdir. Məsələn, Azərbaycan ordusunun silahlanması üçün əldə edilən ROKETSAN şirkətinin SOM qanadlı raketlərinin yaşlanan qırıcı aviasiya əvəzinə yeni "Akıncı"ya inteqrasiyası daha məqsədəuyğundur. Bu proses PUA-ya 180 kilometrə qədər məsafədən, nəinki Ermənistan Hava Hücumundan Müdafiə qoşunlarının məhvetmə zonasına daxil olmadan, hətta ona yaxınlaşmadan 230 kiloqramlıq döyüş başlığı ilə hədəflərə nöqtə zərbələri endirməyə imkan verə bilər. Digər tərəfdən isə, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində idarəolunan aviasiya bombalarının "Akıncı" ilə tətbiqi də mümkündür. Ekspretlər hesab edir ki, Türkiyənin "Akıncı" PUA ailəsinin yalnız alınması deyil, həm də Azərbaycanda istehsal sahəsinin yaradılması mümkündür. Ən azı o baxımdan ki, Azərbaycanın bu sahədə təcrübəsi də var. İsraillə belə istehsal həyata keçirilir. Belə ki, "Pegasus 120" adlanan PUA İsrailin "Aeronautics" şirkəti ilə müştərək əsasda "Azad Systems" müəssisəsində istehsal olunur.




Onu da xatırladaq ki, ölkəmiz Türkiyədən "T-129 ATAK" tipli hücum vertolyotu alınmasına da çox maraq göstərir. Xatırladaq ki, Türkiyə və İtaliyanın ortaq layihəsi olan "T-129 ATAK" hərbi helikopterlərinin sürəti saatda 300 kilometrə çatır, hər cür hava şəraitində, gecə və gündüz uçuş həyata keçirə bilir. Helikopter həm də Türkiyə istehsalı olan kompyuter sistemi ilə təchiz edilib. Helikopterin 42 fərqli avionika və silah sistemi Türkiyə şirkətləri tərəfindən istehsal olunur. Ekspertlər bildirir ki, "T-129 ATAK" döyüş helikopterlərinin alınması Azərbaycan hərb aviasiyasını daha güclü hala gətirəcək.

**Xatırladaq ki, Azərbaycanın silah idxal etdiyi ölkələr sırasında əsas yerlərdən birini məhz Türkiyə tutur. Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq yüksək səviyyədədir. Hələ bir neçə il öncə ölkələrimiz arasında "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə təsdiq edilib.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İşğal altındakı ərazilərin daha bir hissəsi Azərbaycana qaytarılır - Paşinyanın dayaqlarının sarsılmasında Kremlin həlledici həmləsi...

**Ermənistanda son günlərdə yaşanan istefalar bu ölkənin daxili həyatı ilə yanaşı, xarici siyasət sferasına, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin də gedişinə təsir göstərə biləcək mühüm proseslərdən hesab edilir. Bu barədə danışmazdan öncə qeyd edək ki, Ermənistanda son kadr dəyişiklikləri əsas etibarı ilə güc strukturlarının rəhbərlərini özündə ehtiva edir.**

Bütün bu dəyişikliklərə əsas səbəb kimi Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyanın pandemiya dövründə oğluna toy etməsi göstərilir. Amma erməni mediası yazır ki, məsələnin kökü daha dərindədir və söhbət Paşinyanın devrilməsindən gedir. Artak Davtyanın istefasının kökündə məhz bu amilin əsas yer tutduğu vurğulanır. Düzdür, onun işdən çıxmasına səbəb kimi koronavirus pandemiyası dövründə karantin rejimi qaydalarını pozaraq oğluna toy etməsi göstərilir. Belə ki, ölkədə fövqəladə vəziyyət rejimi tətbiq olunmasına baxmayaraq təşkil olunan toy mərasimində 100-dən çox qonaq iştirak edib. Koronavirus pandemiyasına görə ağır vəziyyətlə üzləşən ölkədə Baş Qərargah rəisinin bu addımı ictimaiyyətdə geniş rezonans doğurub. Amma Ermənistanda ictimai rəylə hesablaşılmadığı da heç kimə sirr deyil. Bu fonda diqqət çəkən məqamlardan biri də budur ki, Ermənistanın polis rəisi Arman Sarkisyan da istefa verib. O da Artak Davtyan kimi işdən çıxmaqla bağlı Ermənistan prezidenti Armen Sarkisyana özü ərizə yazıb. Xatırladaq ki, Arman Sarkisyan 2018-ci ilin mayında "inqilabdan" sonra Ermənistan polisinin rəisi Valeri Osipyanın birinci müavini təyin edilib. 2019-cu ilin sentyabrında Osipyan istefa verdikdən sonra o, polis rəisi səlahiyyətlərinin müvəqqəti olaraq icrasına başlayıb. Ölkənin Milli Təhlükəsizlik Xidmətinin rəisi Eduard Martirosyan da Armen Sarkisyana vəzifədən azad olunmaqla bağlı ərizə yazanlar sırasındadır. Qeyd edək ki, Eduard Martirosyan ötən il sentyabrın 19-da Artur Vanesyanın istefasından sonra Milli Təhlükəsizlik Xidmətinin rəisi vəzifəsini icra etməyə başlayıb. O yalnız bu il martın 19-da həmin vəzifəyə təyin edilmişdi. İndi bu şəxslərin adi bir toy qalmaqalına görə istefa verməsi inandırıcı sayılmır. Erməni mediası yazır ki, adları çəkilən şəxslər yaxın təzlikdə Ermənistanın "Vətən" partiyasının sədri, Milli Təhlükəsizlik Xidmətinin rəisi Artur Vanetsyanın ətrafında birləşməyə hazırlaşır. Sonuncunun əsas dayağı isə Rusiya hesab edilir. Bunu Artur Vanetsyanın özü də gizlətmir.

Qeyd edək ki, Artur Vanetsyan baş verənləri baş nazir Nikol Paşinyanın günahı kimi qələmə verir. O, son istefalara münasibətində də qeyd edir: "Bu günlərdə müzakirələrin əsas mövzusu Ermənistanda yaranmış vəziyyətdir. Çox narahatam, belə davam etmək artıq mümkün deyil. Biz böyük fəlakətin astanasındayıq. Əgər indi də ciddi yanaşmasaq və addımlar atmasaq, çox pis olacaq. Məsələn, koronavirus bu gün Ermənistanı sürətlə məhvə aparır. Ermənistanın hazırkı hökuməti epidemiyaya qarşı mübarizədə uğursuz olub. Bu hökumət epidemiya əleyhinə mübarizədə uğursuz olub və bir an öncə uzaqlaşmalıdır". Erməni mediası isə yazır ki, elə güc strukturlarının rəhbərlərinin Paşinyanı tərk etməsinin əsas səbəblərindən biri də pandemiya ilə bağlıdır. "İravnuk" yazır ki, istefa verənlər pandemiya üzündən Ermənistanın fəlakət həddinə çatdığını görür:"Onlar Paşinyanla birlikdə bunun məsuliyyətini daşımaq istəmir. Eyni zamanda, Paşinyanın sarsılan dayaqlarını görüb ondan qaçırlar. Bu insanlara Rusiyadan dəstək vədi də prosesdə az rol oynamır". Bununla yanaşı, diqqət həm də ona çəkilir ki, istefaya gedənlərin yerinə Qərbmeylli gənclər vəzifələrə təyinat alır. Bu məqamı Ermənistanın "Past" nəşri də xüsusi olaraq vurğulayır. Bildirilir ki, Paşinyan Rusiyaya loyal yanaşanları hakimiyyətdən uzaqlaşdırır və buna Moskvanın reaksiyası kəskin olacaq. Nəşr qeyd edir ki, bu durumda yaxın gələcəkdə Ermənistanın diplomatik korpusunda da müəyyən dəyişikliklər gözlənir.

Mövzu ilə bağlı maraqlı detallar da məlum olub. Məlumata görə, "sorosçular" bu sahəyə qarşı xüsusi gözləntilər təzahür etdirirlər. Onların böyük əhəmiyyətə malik olan ölkələrdə səfir vəzifələrində "gözləri var". Söhbət, xüsusən Rusiya, Fransa və bir sıra digər ölkələrdən gedir: "Sorosçular" bu məsələ üzrə "birbaşa mətnlə" Ermənistan baş nazirinə və ya xarici işlər nazirinə müraciət etməyəcəklər. Çünki baş nazir tərəfindən onlara hansısa müqavimət də yoxdur. Məlumata görə, bu durumda dəyişiklik sxemi aşağıdakı kimidir: ardıcıl olaraq bu və ya digər səfiri ictimai şəkildə gözdən salmağa çalışmaq, onlar işdən azad olunanda isə "hazır" namizədlərini təqdim etmək. Beləliklə, yaxın gələcəkdə bir sıra səfirlərə qarşı antitəbliğat kampaniyası başlayacaq. Yeri gəlmişkən, həmçinin danışılır ki, qeyd olunan dairələrin, xüsusən Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanı Ermənistanın Rusiyadakı səfiri vəzifəsində görmək istəkləri var. Qriqoryanın bunu nə dərəcədə istədiyi isə başqa məsələdir. Amma o, faktiki olaraq "sorosçuların" əsas nümayəndələrindən biridir. Bu durumda görünən indi budur ki, Ermənistanda Rusiyaya meylli olanlar sıxışdırılır və onlar cavab tədbiri kimi yenidən təşkilatlanır. Üstəlik, Rusiyadan da bu şəxslərə ciddi dəstək göstərilir.

Erməni mediası da yazır ki, son illər Ermənistanda baş verənlər Rusiyanın bölgədəki hadisələrə fərqli baxmasına təsir göstərib. Düzdür, Moskva Ermənistan hökumətinin başçısını deyil, bu ölkəni özünə müttəfiq sayır. Ancaq hələ ki, rəsmi İrəvana Paşinyan başçılıq etdiyindən, bölgədə Moskvanın maraqlarına qarşı da daha çox onun komandası çıxış edir. Kreml Paşinyanın timsalında Ermənistanda Rusiyaya qarşı çıxacaq qüvvələrin sayının az olmadığının şahidi oldu. Vaxtilə Gürcüstandan gördüyü münasibətlə indi Ermənistanda rastlaşır. Məhz belə vəziyyətdə Rusiya Paşinyana qarşı daha fəal hərəkətə keçir. Bu halda Paşinyanın mövqeyinin sarsılması üçün Kremlin Qarabağ məsələsi üzərindən də həmlələr edəcəyi proqnozlaşdırılır. İşğal altındakı ərazilərin daha bir hissəsinin Azərbaycana qaytarılması Paşinyanın mövqeyini sarsıtmaq üçün həlledici həmlələrdən sayılır.

Digər tərəfdən, bu hal Azərbaycan-Rusiya münasibətlərini də xeyli sıxlaşdıra bilər. Kreml burada nəzərə alır ki, Azərbaycan, Ermənistandan fərqli olaraq, Moskvanın Cənubi Qafqaz siyasətinə davamlı şəkildə dəyişməz münasibət göstərir. Bu, iki ölkə arasında əlaqələrin əsaslı inkişafına da təsir göstərir. Belə əlaqə həm də geosiyasi əhəmiyyət kəsb edərək, Türkiyə-Rusiya münasibətlərinin inkişafına dəstək verir. Eləcə də Ankaraya və Moskvaya rəsmi Bakı ilə daha sıx münasibət saxlamağa yardım edir. Burada onu da xatırlatmaq lazım gəlir ki, Rusiya Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsindəki münaqişənin həllində iştirak edən beynəlxalq vasitəçilərdəndir. Onun Türkiyə ilə normal əlaqələri bu münaqişənin ədalətli həllinə də yardım edə bilər. Nəzərə almaq lazımdır ki, Türkiyə rəsmiləri rusiyalı həmkarları ilə müxtəlif səviyyəli görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin həllindən danışır, Azərbaycan torpaqlarının işğaldan azad edilməsini dəstəklədiklərini bildirirlər. Bu baxımdan rəsmi Bakının müttəfiq saydığı qonşu Rusiya ilə dost, qardaş Türkiyə arasında münasibətlərin normal olması Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yolunda da həlledici addımların atılmasına təsir göstərə bilər.

Beləliklə, Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlığı təkcə region üçün deyil, beynəlxalq təhlükəsizlik, əməkdaşlıq və sabitlik üçün əhəmiyyətlidir. Dağlıq Qarabağın işğaldan azad edilməsi isə bu formatı daha da möhkəmləndirər, bu üçlüyü dünyanın ən güclü müttəfiqlərindən edər. Bunu indi Rusiyada da nəzərə alırlar. Elə erməni politoloq Karen Bekaryan da qeyd edir ki, yaranmış vəziyyətdə Azərbaycan uğurlu manevr edərək, Rusiyanın da yardımı ilə zəbt olunmuş ərazilərin daha bir hissəsini özünə qaytarmağı planlaşdırır:"Ermənistanın Vatikandakı keçmiş səfiri Mikayel Minasyan bu durumda"lift diplomatiyası"nın zərərlərini olduqca yumşaq şəkildə təqdim edir. Təəssüf ki, yaranmış çətinliklər olduqca dərin və çoxqatlıdır. İndiki vəziyyətdə Azərbaycan prezidentində təəssürat var ki, Paşinyanın torpaqları geri qaytarmaq, bundan irəli gələn gözləntiləri, davranış və hərəkətləri yerinə yetirmək borcu var. İlham Əliyev Ermənistan üçün risqləri əvvəlcədən hesablanmamış razılaşmadan maksimal istifadə edib və istifadə etməyə davam edir. Atəş açmamaq razılaşması altında İlham Əliyev 2 il ərizində ardıcıl şəkildə öz mövqelərini yaxşılaşdıraraq və daha artığını gözləməyi davam etdirərək bütün mümkün digər sahələrdə cavabsız "atəş açıb". Bənzər vəziyyətdə yeganə çıxış yolu budur ki, baş nazir və onun komandası bir an öncə hakimiyyətdən uzaqlaşmalı, yeni gələn hakimiyyət də səylər göstərərək mövcud dağıdıcı inersiyanı dayandırmağa çalışmalıdır. Amma hazırda bu olduqca çətin görünür və Moskvanın da artan təzyiqləri Azərbaycanın maraqlarına daha çox uyğun gəlir". Bu durumda erməni tərəfində etiraflar artır ki, Azərbaycan proseslərdən istifadə edərək, yeni ərazilərin azad olunmasına nail olacaq. Buna təsir edən əsas amillərdən biri məhz Ermənistan daxilində baş verənlər, rusiyameyllilərin yenidən təşkilatlanması, Kremldən dəstək almalarıdır. Belə vəziyyətdən də Azərbaycan maksimal dərəcədə öz lehinə istifadəni planlaşdırır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Koronavirusla bağlı həftəsonu qayda sərtləşməsinə radikal düşərgədə ziddiyyətli mövqe - bəzilərinin səsi çıxmadı...

**Şənbə-bazar günləri koronavirusla əlaqədar tətbiq olunan məlum məhdudiyyətlərlə bağlı radikal mövqedən çıxış edən bəzi partiyalar belə, qaydalara riayət etmək barədə ictimaiyyətə müraciət etdilər. Məsələn, "ReAl" partiyasının sədri İlqar Məmmədov ictimaiyyətə müraciət edərək, onları qaydalara əməl etməyə çağırdı:**

*"Görünən odur ki, bu adamları dövlət və millət deyil, onlarla bir cərgədə olmayanları qaralamaq..."*

"Şənbə-bazar hər kəsi sərt karantin qaydalarına riayət etməyə çağırıram. İndi sosial məsafə saxlanmasa, ictimai yerlərdə maska taxılmasa və virusun yayılmasına qarşı digər tədbirlərə riayət edilməsə, xəstəxanalardakı vəziyyət çox acınacaqlı olar. Virus hər yerdə müxtəlif sürətlə yayılır və Azərbaycan onun qarşısını vaxtından əvvəl tam almasaydı, indi digər ölkələrdə olduğu kimi, vəziyyət yaxşılığa doğru dəyişirdi. İqtidar səhv edə bilər - bu haqqı ona koronavirus məsələsində ən əvvəldən tanımışıq, çünki bütün dövlətlər bu yolu sınaya-sınaya gedir, hazır və hər kəsə məlum cavab indiyədək olmayıb. Amma bu dəfə biz real müxalifət olaraq vətəndaşları daha diqqətli olmağa, qaydaları icra etməyə çağırırıqsa, hazırda bu qaydaların həqiqətən əhəmiyyət kəsb etdiyinə kiminsə şübhəsi qalmamalıdır".

Ancaq virusa yoluxanların sayının artması fonunda Milli Şurada təmsil olunan qüvvələr ictimaiyyətə bununla bağlı müraciət etmədilər. Hansı ki, burada insanların sağlamlığından, həyatından söhbət gedir. Əksinə, Milli Şura hər fürsətdə bundan siyasi məqsədlər üçün istifadə etməyə çalışır. Yeri gəldi-gəlmədi, pandemiya ilə bağlı hakimiyyəti tənqid edir. Bu da onu göstərir ki, Milli Şura üçün insanların sağlamlığı yox, öz siyasi maraqları öndədir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in sədr əvəzi Arzuxan Əlizadə bir sıra məqamlara toxundu: "Günümüzün reallığı budur ki, koronavirus pandemiyası hazırda bütün dünya əhalisini təhdid etməkdədir. Bu səbəbdən ölkələr sərhədlərini bağlamaq da daxil olmaqla, bir sıra sərt məhdudiyyətlər tətbiq ediblər. Ölkəmizdə də

***Arzuxan Əlizadə:** "Özünü "milli" adlandıran qrupun bu məsələ ilə bağlı sərgilədiyi mövqeyi qınayıram"*



bununla əlaqədar bir sıra qabaqlayıcı tədbirlər görülüb və qadağalar tətbiq olunub. Biz elə ilk gündən bununla əlaqədar mövqeyimizi bildirərək koronavirusla mübarizənin təkcə hakimiyyətin və ya dövlət strukturlarının üzərinə düşən vəzifə olmadığını bildirdik. Dövlət qurumları bununla bağlı nə qədər birbaşa məsuliyyət daşısalar da, bu qorxunc virusla mübarizənin həm də hər bir vətəndaşın vəzifəsi olmasını bildirmişik. Hesab edirəm ki, bunu nəzərə alaraq cəmiyyətin tərkib hissəsi olan siyasi partiyalar da cəmiyyətin bu istiqamətdə maarifləndirilməsində fəal olmalıdırlar. Ona görə bizim də üzv və tərəfdarlarımıza, həmçinin, ictimaiyyətə qadağaları anlayışla qəbul etməklə əlaqədar müraciətlərimiz olub".

A.Əlizadənin fikrincə, mövcud vəziyyətdən siyasi məqsədlər üçün istifadə insanlıqdan kənardır: "Təbii ki, özünü "milli" adlandıran qrupun bu məsələ ilə bağlı sərgilədiyi mövqeyi də qınayıram. Son günlərdə bunların toplantılarından yayılan videogörüntülərdə apardıqları qeybət xarakterli müzakirələr, əslində, orada cəmləşənlərin hansı səviyyədə, əxlaqda və düşüncədə olduğunu çılpaqlığı ilə ortaya qoyub. Görünən odur ki, bu adamları dövlət və millət deyil, onlarla bir cərgədə olmayanları qaralamaq, hərəyə bir çamur atmaq, bir sözlə, şəxsi və qrup maraqları daha çox ilgiləndirir".

***Vidadi ORDAHALLI***

# Milli Şura sosial şəbəkədə özünü "batıra-batıra gedir" - lağ-lağılar, "kələ" söhbətləri...

**Artıq neçənci dəfədir ki, Milli Şura adlandırılan qurumun gizli videokonfranslarının məzmunu ictimailəşdirilir. Hər dəfə də biz orda, siyasətdən başqa, istənilən mövzuda söhbətin getdiyinin şahidi oluruq. Əgər ötən dəfə müzakirə mövzusu cinsi azlıqlar olmuşdusa, bu dəfə daha "maraqlı" mövzulara müraciət olunub.**




Milli Şura üzvlərinin "zoom konfransı"ndan yeni görüntüdə yenə də digər partiyaların ünvanına təhqiramiz ifadələr yer alıb - Milli Şuranın sədri Cəmil Həsənli müxalifət partiyalarını "tryapka" adlandırıb. Onun bu fikirləri isə digər müzakirə iştirakçıları tərəfindən də məmnunluq və təbəssümlə qarşılanıb.

Bundan başqa, görüntülərdə xarici diplomatların Azərbaycan xalqını aşağılayan fikirlərinin də Milli Şuranın üzvləri tərəfindən bəyənildiyi və təsdiqləndiyi görünür. Gültəkin Hacıbəyli isə inəyin "ərinin" "buğa" və ya "kələ" olması ilə bağlı fikirlərini konfrans iştirakçıları ilə bölüşüb. Maraqlıdır, adını ciddi siyasi təsi-

***Rasim Quliyev:** "Bütün parametrlər üzrə bu cür müxalif qüvvələr iqtidarla müqayisədə tamamilə başqa müstəvidə olduqları üçün elə görülən səviyyəni nümayiş etdirirlər... "*

sat qoyan qurum niyə özünü sosial şəbəkələrdə belə nüfuzdan salır?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Milli Şura ilə bağlı dəfələrlə fikir bildirib:"Azərbaycanda konstruktiv müxalifətə doğrudan da ehtiyac duyulur, amma biz siyasi palitrada bunu görə bilmirik. Bunun da bir sıra əlamətləri özünü göstərir. Üfüqdə güclü müxalifətin görünməməsinin birinci şərti Prezident və komandasının güclü olmasıdır. İkinicisi budur ki, xalq mərhum Heydər Əliyevin və onun layiqli davamçısı olan indiki Prezidentin siyasətini tam dəstəkləyir. Hazırkı iqtidarın bütün sahələr üzrə apardığı siyasət alternativ tanımır. Bununla yanaşı, biz müxalifət cəbhəsində intellekt kasadlığı da görürük. Milli Şuranın iclasları başqa bir reallığı da üzə çıxarır. Onlar bilirlər ki, iclasda hətta ciddi məsələni müzakirə etsələr belə, bunun ictimai rəyə təsiri olmayacaq. Bu səbəbdən də, yalnız statusu qorumaq üçün, arada formal toplantılar keçirirlər. İndi texnologiyalar inkişaf edib və biz həmin iclası izləyə bilirik. Uzun illərdi ki, onlar belə müzakirələri çayxana formatında aparırdılar. Əgər belə müzakirələrin cəmiyyətə təsiri yoxdursa, onun səviyyəsi elə qeybət və ondan da aşağı olacaq".

Rasim Quliyev hesab edir ki, sağlam rəqabət inkişafı şərtləndirir:"Biz də istərdik ki, iqtidara sağlam rəqabətdə olan güclü, intellektli müxalifət formalaşsın. Belə rəqabət, həm də dövlət idarəetməsini asanlaşdırır. Bizdə, faktiki olaraqə. islahatları da Prezident aparır, komanda ilə rəqiblik edən də onun özüdür. Məmur özbaşınalığının da geniş vüsət almasının bir səbəbi güclü müxalifətin olmaması ilə bağlıdır.

**Bütün parametrlər üzrə bu cür müxalif qüvvələr iqtidarla müqayisədə tamamilə başqa müstəvidə olduqları üçün elə görülən səviyyəni nümayiş etdirirlər. Cəmiyyətin tələbi ilə ayaqlaşa bilməyən, yalnız mövcudluqlarını sübut etməyə çalışanlardan bundan artıq heç nə gözləmək olmaz. Onların müzakirəsində Azərbaycan üçün aktuallıq kəsb edən nəsə yoxdur, ola da bilməz".**

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Ermənistanda bir gündə 3 güc naziri - polis rəisi Arman Sarkisyan, Baş Qərargah rəisi Artak Davtyan və Milli Təhlükəsizlik Xidmətinin direktoru Eduard Martirosyan istefa veriblər.**



# Ermənistanın siyasi hakimiyyətində iri məmur istefaları artır - Paşinyanı təkləyən səbəblər...

## *Mübariz Əhmədoğlu: "Bütün bunlar onu göstərir ki, Paşinyanın komandası onun ətrafından qaçır"*

Məlumat üçün qeyd edək ki, A.Davtyan 2018-ci il mayın 24-də Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə təyin edilib. Eduard Martirosyan ötən il sentyabrın 19-da Artur Vanesyanın istefasından sonra Milli Təhlükəsizlik Xidmətinin rəisi səlahiyyətlərini icra edib. O, bu il martın 19-da bu vəzifəyə təyin edilmişdi. 42 yaşlı polis rəisi Arman Sarkisyan isə bu vəzifəyə bu ilin mart ayında təyin olunub. Paşinyanın başçılıq etdiyi "məxməri inqilab"ın qələbəsindən sonra A.Sarkisyan Ermənistan polis rəisinin birinci müavini təyin edilib, 2019-cu ilin sentyabrında Valeri Osipyan istefaya çıxarıldıqdan sonra o, polis rəisi vəzifəsini müvəqqəti icra edirdi.

Güc strukturları rəhbərlərinin istefası koronavirusla bağlı sanitar qaydalara nəzarət edə bilməmələri kimi məsələlərlə əlaqələndirilsə də, əslində, bu, hökumətdaxili gərginliyin artması ilə bağlıdır. Məsələ ondadır ki, Paşinyanın komandası onun kaprizlərinə uzun müddət dözə bilmir. Paşinyan, vur-tut, iki ildir ölkəyə rəhbərlik edir, amma bu müddət ərzində bir sıra istefalar baş verib. Ötən ilin sentyabrında Artur Vanesyan MTX sədri vəzifəsindən istefa verib və çox keçmədən Paşinyana qarşı müxalif mövqeyə keçib. Bu günlərdə yeni partiya yaradıb. Bundan başqa, bu il mayın 5-də Ermənistanın ətraf mühit naziri Erik Qriqoryan istefa verib. O, 1 iyun 2019-cu ildən bu vəzifəni icra edirdi. Mayın 14-də Ali Attestasiya Komissiyasının sədri Smbat Qoqyan istefa verib. S.Qoqyan 2018-ci il iyunun 12-də Ali Attestasiya Komissiyasının sədri təyin olunub. İyunun 4-də Dövlət Gəlirlər Komitəsinin sədri David Ananyan istefa verib. Qeyd edək ki, D.Ananyan 18 may 2018-ci ildə DGK-nın rəhbəri vəzifəsinə təyin edilib. O, keçmiş baş nazir Karen Karapetyanın biznesdən gətirdiyi mütəxəssislərdən biridir.

Görünən odur ki, Paşinyanın komandası onun yeritdiyi kursla razılaşmadığı üçün istefa verməklə məsuliyyətin altından çıxır. Belə olmasaydı, bir ay ərzində bir belə yüksək vəzifəli məmur istefa verməzdi.

*"Baş naziri qeyri-peşəkar, psix hesab edib ondan uzaqlaşmaq yolunu tuturlar"*

Maraqlıdır, bəs ekspertlər sözügedən istefaları necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu hesab edir ki, Nikol Paşinyan qeyri-peşəkar olduğuna görə komanda üzvləri onunla işləmək istəmirlər: "Burada bir az fərq ondan ibarətdir ki, istefa verənlər müxtəlif taktikalardan istifadə edirlər. Yəni işlərini elə düzüb qoşurlar ki, hadisələrin gedişi onların xeyrinə olsun. Məsələn, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi A.Davtyan ordudakı vəziyyəti və qanunvericiliyi də yaxşı bilir. Bu günlərdə Paşinyan 50 uşağı bir yerə yığıb son zəng keçirən məktəb direktorunu işdən azad edib. Buna rəğmən, A.Davtyan oğluna toy edib, heç olmasa, 100 nəfəri mərasimə çağırır. Fikrimcə, A. Davtyan bilərəkdən bu addımı atıb. O məqsədlə bunu etdi ki, Paşinyan onu işdən azad etsin. O cümlədən, Ermənistan MTX direktoru E.Martirosyan da bilərəkdən bənzər addım atıb. Çünki əvvəl deyirdilər ki, E.Martirosyan Paşinyanın kaprizlərinə dözməyib istefa verəcək. Ancaq o, işini elə qurdu ki, Paşinyan onu işdən çıxarsın. Bütün bunlar onu göstərir ki, Paşinyanın komandası onun ətrafından qaçır. Baş naziri qeyri-peşəkar, psix hesab edib ondan uzaqlaşmaq yolunu tuturlar. Ancaq onun ətrafından elə qaçırlar ki, günahkar Paşinyan özü olur. Hazırda Ermənistanda gedən proseslərin mahiyyəti bundan ibarətdir".

***Vidadi ORDAHALLI***

**Paşinyan ətrafında yeni korrupsiya qalmaqalı yaranır. Buna səbəb erməni deputat Artem Çarukyanın bəzi faktları ortaya çıxarmasıdır. A.Çarukyanın sözlərinə görə, Ermənistanın indiki hökumətində təmiz, qanuna tabe olan məmurlar yoxdur. Faktiki olaraq, bu ölkənin səlahiyyətliləri arasında heç bir layiqli insan tapa bilməzsiniz.**



# "Bonus institutu" - Paşinyanın maraqlı korrupsiya mexanizmi...

## *Ramil Hüseynov: "Baş nazir gəlirlərini artırmaq üçün bir sıra qanunsuz vasitələrdən istifadə edir"*

Deputat qeyd edib ki, Ermənistanın hazırkı hökuməti cəmi iki ildə öz ətrafında kifayət qədər zəngin bir "korrupsiya tarixi" formalaşdıra bildi. O, bununla bağlı bir sıra məqamlara xüsusi olaraq toxunub: "Təkcə "bonus institutu" sistemli korrupsiyanın bariz nümunəsidir. Nikol Paşinyan komanda yoldaşlarını dövlət büdcəsi və vergi ödəyiciləri hesabına "zənginləşdirir" və onlarla birlikdə "gəzdiyinə" görə mükafatlandırır. Paşinyan haqqında əldə etdiyimiz məlumatlar kifayət qədər etibarlıdır. Nikol Paşinyanın fərdi komanda yoldaşları onun maraqlarını müdafiə etdiyi üçün böyük məbləğ alıblar. Kanadada Paşinyanın cangüdəninin bacısının adına 3 milyon dollarlıq bir ev alınıb".

Bundan başqa, "Qraparak" nəşri yazır ki, Ermənistanda korrupsiya qalmaqalları prosesi sürətlənməyə başlayır: "Böyük şirkətlər, Baş nazirin ailəsi ilə yaxın əlaqəsi olan fərdi şəxslər vasitəsilə ya dövlətin xeyrinə səhmlərindən imtina etməyə məcbur edilir, ya da cinayət məsuliyyətinə cəlb edilməyə başlayırlar. Bir sıra ekspertlər hesab edirlər ki, Anna Hakopyan rəhbərlik etdiyi "Haykakan Jamanak" qəzeti vasitəsilə mətbuatda "sızmalar" təşkil edir. Eyni zamanda, bir çox iş adamı üçün səmərəli problem həll edən fərdə çevrilir".

Bütün bunlar Paşinyan hakimiyyətinin korrupsioner mahiyyətini ortaya qoyur.

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, ötən iki ildə Ermənistan hakimiyyətinin korrupsiyalaşması genişlənib: "Son zamanlar Paşinyan hakimiyyətinin korrupsiya əməlləri ilə bağlı ortaya çıxan faktlar bu qənaətə gəlməyə əsas verir. Məsələ ondadır ki, Paşinyanın adının qanunsuz silah, siqaret, brilyant alverində və digər məsələlərdə hallanması bir sıra məqamlardan xəbər verir. Məlum olur ki, o, gəlirlərini artırmaq üçün bir sıra qanunsuz vasitələrdən istifadə edir. Əvvəla bu onu göstərir ki, demokratiya adı altında hakimiyyətə gələn Paşinyanın səsləndirdiyi vədlər populist xarakterli fikirlərdir. O heç də iddia etdiyi kimi, Ermənistanda azad cəmiyyət qurmaq fikrində deyil. Bütün bunları etməkdə məqsədi ölkədə öz şəbəkəsini qurmaqdır. 2018-ci ildə Ermənistanda baş verən "məxməri inqilab" nəticəsində ölkədəki gəlir mənbələri bir klanın əlindən digər qrupun əlinə keçdi. Çünki 20 il Ermənistanda hakimiyyətdə olan "Qarabağ klanı" bütün gəlirli sahələri öz əlində cəmləmişdi. Bu da İrəvan ermənilərini zaman-zaman narahat edirdi. Paşinyan bu narazılıqdan istifadə edərək hakimiyyəti ələ keçirdi. Ancaq mahiyyət etibarilə heç nə dəyişmədi. Ona görə ki, sərvət bir əldən digər ələ keçdi. Bir məqamı da qeyd edim ki, Paşinyan Rusiya üçün arzuolunmaz şəxs olduğu üçün, Kreml dolayı kanallarla onun korrupsiya şəbəkəsinin ifşa edilməsinə yardım edir. Hesab edirəm ki, bir sıra faktların üstünün açılması həm də bununla bağlıdır. Bütün bunlar isə Paşinyana yaxşı sonluq vəd etmir".

*"Bütün bunları etməkdə məqsədi ölkədə öz şəbəkəsini qurmaqdır"*

***Vidadi ORDAHALLI***

# Avropa bu dəfə diqqətini Azərbaycanın tranzit imkanları üzərində cəmləyir

**Azərbaycanın təşəbbüs və iştirakı ilə həyata keçirilən bir sıra mühüm layihələr Qərbdə, xüsusən də Avropada getdikcə daha çox diqqət cəlb etməkdədir. Söhbət ilk növbədə yükdaşımalar sahəsində həyata keçirilən layihələrdən, xüsusən də Bakı-Tiflis-Qars dəmir yolu xəttindən gedir.**

Belə görünür ki, Avropa ölkələri bu layihələrdə daha yaxından iştirak etməyi düşünür.

Eyni zamanda, Avropanın bu layihələrə cəlbinin Azərbaycan üçün daha bir mühüm üstünlüyü ölkənin Qərb bazarlarına daha asan çıxış əldə etməsi baxımından da önəmli sayılır. Bunu Xarici İqtisadi Münasibətlər Qurumunun (DEİK) Türkiyə-Azərbaycan İş Şurasının başçısı Selçuk Akat da xüsusi olaraq vurğulayır:"Türkiyə və Azərbaycan arasındakı ikitərəfli ticarət əlaqələrində ikitərəfli investisiya əməkdaşlığı strateji əhəmiyyət daşıyır. Koronavirus pandemiyası dövründə gediş-gəlişlərin məhdudlaşdırılmasına baxmayaraq, iki ölkə arasında qarşılıqlı əlaqələr dayanmayıb, əksinə, Bakı-Tiflis-Qars dəmir yolu xətti ilə daha da güclənib. Bu da Türkiyə və Azərbaycanın birgə strateji investisiya layihəsi olan Bakı-Tiflis-Qars dəmir yolu nəqliyyatının zəruriliyini bir daha ortaya çıxarıb. Bu yaxınlarda Türkiyənin ixrac mallarını Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistana daşıyan 82 konteynerdən ibarət 940 metrlik qatar Qarsdan yola çıxmışdı. Beləliklə, quru yollarının bağlanması fonunda Azərbaycan və Türkiyə ixracatçıları üçün vacib tranzit yoluna çevrilib". Azərbaycanın müstəqillik əldə etməsindən sonrakı dövrdə Türkiyə və Azərbaycan Gürcüstanla birlikdə Bakı-Tiflis-Ceyhan neft boru kəməri, Bakı-Tiflis-Qars dəmir yolu xətti, TANAP, STAR neft emalı zavodu kimi strateji layihələr həyata keçirdiyini bildirən S.Akat bildirib ki, iki dövlət, bir millət tək iqtisadiyyata çevrilib:"İki ölkə arasındakı əlaqələrimizi gücləndirəcək yeni strateji bir layihə gündəmə gətirməliyik. Təklifim yaşadığımız pandemiyadan sonra, xüsusilə Avropada qlobal tədarük zəncirləri ilə əlaqəli iki anlayış irəli çıxır; yenidənqurma və yaxınlaşma. Yəni Avropa iqtisadiyyatları, tədarüklərini Avropa daxilindən və ya Avropaya yaxın ərazilərdən etmək istəyir. Xəzər və Aralıq dənizini bir-birinə bağlayan Bakı-Tiflis-Qars Azərbaycanı Türkiyə üzərindən Avropaya daha yaxın edib. Beləliklə, dəmir yolu xəttindən istifadə edərək Azərbaycanı Avropanın tədarük zəncirinə əlavə etmək üçün işləyə bilərik. Azərbaycan "Made in Azerbaijan" proqramı və 7 fərqli xüsusi sənaye və texnoparklarındakı istehsal imkanları ilə yeni iqtisadi inkişaf imkanları əldə edə bilər". Selçuk Akat onu da bildirib ki, türk iş dünyası olaraq əsas fürsət Çindən ayrılması gözlənilən qlobal tədarük zəncirində strateji bir mövqe tutmaqdır.




Bunlar fonunda daha bir maraqlı açıqlama isə Niderlandın Azərbaycandakı səfiri Onno Kervers tərəfindən gəlib. Səfir qeyd edib ki, Niderland və Azərbaycan dəmir yolu əlaqəsinin yaradılması üzərində işləyir. O bildirib ki, dəmir yolu Azərbaycandan keçməklə Venlo şəhərindən Çinə qədər uzanacaq:"Ümid edirik ki, bu layihəni reallaşdırmağa nail olacağıq". Səfirin sözlərinə görə, hazırda Maas çayı üzərində yerləşən Venlo limanı ilə Bakının yeni Ələt limanı arasında əlaqələr mövcuddur:"Bakı limanının direktoru Taleh Ziyadov personalın tədris üçün Niderlanda yollanmasında maraqlıdır". Kervers əlavə edib ki, o, Dövlət Gömrük Komitəsi Akademiyasının direktoru ilə əlaqədədir: "O, Rotterdam limanının gömrüyü ilə əməkdaşlıqda maraqlıdır. Gömrük logistikanı ləngidən nəzarətdir. Əgər gömrük yoxlamasını liman idarəetmə sistemlərinə inteqrasiya etmək mümkün olsa, bu qat-qat səmərəli olacaq və siz yükləri daha sürətlə daşıya biləcəksiniz".

Beləliklə, Azərbaycandan Avropaya yükdaşımalarda dəmir yolu əlaqəsindən istifadə ön plana çıxır və bu zaman, Selçuk Akatın qeyd etdiyi kimi, Azərbaycan Avropanın tədarük zəncirində mühüm rol oynaya bilər. Belə vəziyyət Azərbaycan məhsullarının Avropaya daha sərfəli şərtlər əsasında çıxışına da yeni imkalnlar yaradır. Eyni zamanda Avropa özü də dəmir yolu şəbəkəsini Azərbaycanla əlaqələndirməyə çalışır. Xüsusən də Bakı-Tiflis-Qarsa qoşulmaqla Avropa Azərbaycan üzərindən Çin bazarları ilə əlaqələri daha da dərinləşdirməyi düşünür. Bu mənada, iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov da qeyd edir ki, Bakı-Tiflis-Qars bir çox ölkələrin maraq dairəsindədir. Onun sözlərinə görə, bir çox ölkələr bu xətti artıq maraq dairəsinə daxil edib:"Dəmir yolu xəttindən istifadə ilə bağlı Asiya, o cümlədən Mərkəzi Asiya, eləcə də Şərqi Avropa ölkələri ilə müzakirələr aparılıb. Xüsusilə Polşa BTQ-dən istifadə etməkdə maraqlıdır. Ümumiyyətlə isə nəqliyyat dəhlizləri, xüsusilə də "Şimal-Cənub" nəqliyyat dəhlizi Azərbaycan üçün çox önəmlidir. Çünki bu dəhliz vasitəsilə yüklər Rusiyadan Hindistana qədər daşınır. Azərbaycanın maliyyə dəstəyi ilə İran ərazisində dəmir yolu xəttinin inşasına dəstək nümayiş etdirilib. Bu baxımdan "Şimal-Cənub" nəqliyyat dəhlizinin tam reallaşması, yəni tam fəaliyyət göstərməsi çox vacibdir. Bu, sözsüz ki, ölkə üzərindən daşınan yüklərin həcminin artımına, daha çox yükün Azərbaycan vasitəsilə Şimaldan Cənuba daşınmasına imkan verəcək. Koronavirus pandemiyası BTQ-dən istifadə ilə bağlı müzakirələri ləngitsə də, postpandemiya dövründə danışıqlar sürətlənəcək və dəmir yolu xəttindən istifadə artacaq. Odur ki, yolun rentabelliyi bacardıqca artırılmalıdır. Kifayət qədər ölkənin bu xətdən istifadəyə dair potensialı var. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərindən aktiv istifadə etmək, BTQ vasitəsilə yüklərin fərqli ölkələrin bazarlarına çıxarılmasını təmin etmək lazımdır".

***Ramil QULİYEV***

# Emil Bayramzadə adlı "rejissor"u kimlər necə tanıyır - sosial şəbəkə yıxıb sürüyür, istedadlı sənət adamları isə...

**Ən yaxşı silah istedadsız adamların ifşa edilməsi olardı. Çünki istedadsız adamla öz dilində danışmaq, öz əxlaqına uyğun davranmaq daha uyğundur. Təəssüflər olsun ki, sosial şəbəkə platformasında bu cür qeyri-ciddi olanlar az deyil. Müxtəlif prestijli sənət və peşə sahələrinin adı arxasında gizlənən bəlləri öz qeyri-əxlaqi davranışları ilə o sənətə kölgə salırlar.**





Sosial şəbəkələrdə əxlaqdan kənar, tərbiyəsiz statuslar, paylaşılan normal statusların altına tərbiyəsiz, öz əxlaqına uyğun rəylər yazan "rejissor" Emil Bayramzadə adlı birisi var. E.Bayramzadə dostluğunda olan şəxslərin paylaşdıqları statusların altına əxlaqsız rəylər yazmaqla "populyar"dır. Sabun köpüyünə bənzəyən bu "populyar"lığın altında onun əxlaqdan uzaq düşüncəsi, təfəkkürü dayanır. "Facebook" səhifəsi ilə tanış olarkən onun qeyri-ciddi, lağ-lağı ruhlu, səviyyəsiz statuslarının şahidi olduq. Bu adam "rejissor" adının arxasında gizlənərək, çirkab düşüncəsini "ixrac etmək"lə məşğuldur. Trolluq edib, başqalarını təhqir edən bu insanın özünün, əslində, kim olduğunu, həqiqətən də kino, yaxud teatr rejissoru kimi ortaya hər hansı bir iş qoyduğunu görən və bilən yoxdur.

Onun kimilərin sosial şəbəkədə tərbiyəsizliyinin bu şəkildə yeni formasının sərgiləndiyini görürük. İnsan nə qədər tərbiyəsiz olmalıdır ki, qeyd edilməsini məsləhət görmədiyimiz sözlər yazsın. Amma E.Bayramzadə bunu edir, bununla da öz çirkli daxili aləmini ortaya qoyur. Sosial şəbəkə istifadəçilərinin E.Bayramzadə haqqında yazdıqları fikirlərdən belə qənaətə gəlmək olar ki, onun işi yalnız təhqir etmək, tərbiyəsizlik göstərməkdir.

Keçək "Facebook" istifadəçilərinin onun haqqındakı fikirlərinə.

Mirqafar Səlimov: "Bu insan belədir, mən onu tanıyıram.

Bunu gizlət, yaxud şikayət et"

Nuranə Abdullayeva: "Mirqafar Səlimov, bu insan mənə dil uzatmışdı, bu, normal biri deyil".

Mirqafar Səlimov: "Nuranə Abdullayeva, yoldan keçəni, bardan, kafeden çıxanı dəvət edib serial, film çəkir. Maşennikdir".

Samir Adıgozəlli: "Bu adam nə istəyir axı?"

Elbəy Ağayev: "Mən tanıyıram, çox keyfiyyətsiz insandır. Bu özü də bilmir kimin troludur, kimə trolluq edir"…

***Zülfiyyə Eldarqızı:** "Emil Bayramzadənin adını ilk dəfədir sizdən eşidirəm"*

***Vidadi Qafarov:** "Mən bu adda rejissor tanımıram, heç eşitməmişəm"*

Sosial şəbəkə istifadəçilərinin bəzilərinin onun haqqında rəyləri ilə tanış oldunuz.

İndi isə keçək tanınmış sənət adamlarının, rejissor və aktyorlara dərs demiş tanınmış şəxslərin fikirlərinə.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyorlara, rejissorlara dərs demiş (hazırda orada işləmir - İ.S), tanınmış aktrisa Zülfiyyə Eldarqızı bizimlə söhbətində qeyd etdi ki, ümumiyyətlə, o, belə bir adam tanımır: "Emil Bayramzadənin adını ilk dəfədir sizdən eşidirəm. Mən belə bir rejissor tanımıram, heç tələbələrim arasında da belə birisi olmayıb. O ki, qaldı onun sosial şəbəkələrdə "rejissor" adından istifadə edərək nalayiq hərəkətlər etməsinə, bunu qətiyyətlə pisləyirəm. Sosial şəbəkə kimlərinsə öz tərbiyəsizliyini sərgiləmək üçün vasitə deyil. Bu gün təəssüf ki, "rejissor"luq edənlər çoxdur, amma onların ortaya nə qoyduğu da məlum deyil" - deyə Z.Eldarqızı bildirdi.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Teatr, kino və televiziya" şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti Vidadi Qafarov da belə bir "rejissor" tanımadığını qeyd etdi: "Mən bu adda rejissor tanımıram, heç eşitməmişəm. Teatr rejissorudur, yoxsa kino?".

Gördüyünüz kimi, ciddi sənət adamları, kino, teatr və televiziya üçün kadr yetişdirən insanlar E.Bayramzadəni tanımırlar. Amma sosial şəbəkə istifadəçiləri onu tərbiyəsiz, trolluqla məşğul olan, əxlaqdan kənar fikirlər yazan, hətta bar qızlarını "seriala" çəkən birisi kimi tanıyır.

*İradə SARIYEVA*

# Yerli istehsalımız da var artıq - maska əvvəlki 10 qəpik qiymətinə niyə qayıtmır...

**Pandemiyanın ilk aylarında maskaya olan tələbatın ciddi şəkildə artması və ixracın dayandırılması maska qıtlığına səbəb oldu. Hətta məsələ o həddə çatmışdı ki, əczaxanaların qapısına "maska yoxdur" yazısı vuruldu.**



***Alxan Xələfov:** "Qoruyucu maskaların vətəndaşlara baha qiymətə satılması virusla mübarizədə effektiv nəticələrin əldə olunmasına əngəl törədir"*

Lakin bu problem qısa zamanda öz həllini tapdı. Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumlarının birgə səyilə qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalının Azərbaycana gətirilməsinə nail olundu. Ölkəmizdə tibbi maska istehsalı müəssisəsinin təşkili işləri başa çatdırıldı və müəssisə fəaliyyətə başladı. Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırıldı. "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edildi və ona Sənaye Parkının rezidenti statusu verildi. Bu status müəssisəyə sənaye parklarına tətbiq edilən güzəştlərdən faydalanmağa imkan verir. İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 mln. manat güzəştli kredit verildi. Müəssisədə 30-dan çox yeni iş yeri yaradıldı. İstehsal prosesi üçnövbəli təşkil edildi. Tibbi maskalar İSO 17050-1 standartlarına uyğun istehsal edildi. Nəticə etibarilə ilkin mərhələdə yaşanan qıtlığın qarşısı alındı.

Bir müddət əvvəl karantin qaydalarının yumşaldılması ilə insanların maskaya olan münasibətində də, sözün həqiqi mənasında, "yumşalma" hiss edildi. Bələ ki, əvvəllər maskanın yoxluğundan şikayətlənən vətəndaşlar artıq maska taxmamağa başladılar. Bu isə qaydaların yumşalmasından sonra virusa yoluxma sayının kəskin artmasına səbəb oldu. Son bir həftədir yoluxma sayı sağalanların sayını üstələyir. Ona görə də maskanın məcburi istifadəsi ilə bağlı ciddi addımlar atıldı. Milli Məclisin 31 may tarixində keçirilən plenar iclasında pandemiya dövründə maska taxmamağa görə cərimələr müəyyən edilib və bununla bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik parlamentdə müzakirəyə çıxarılıb. Dəyişikliyə əsasən, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslərə əlli manat məbləğində, vəzifəli şəxslərə yüz manat məbləğində, hüquqi şəxslərə iki yüz manat məbləğində cərimənin tətbiq olunması ilə bağlı qanun qəbul edilib. Belə bir qanunun qəbul edildiyi dönəmdə əczaxanalarda maskaların sayının azalması yaxşı hal deyil. İnsanlar haqlı olaraq narazılıqlarını bildirirlər. Vətəndaşlara maska taxmadıqları üçün cərimə olunacaqlarını deyəndə, bəhanə kimi aptеklərdə maskanın olmadığını qeyd edirlər. Təbii ki, belə olan halda, maskanın satış qiyməti də qalxır.

Qeyd edək ki, pandemiyadan öncə Azərbaycanda tibbi maskanın satış qiyməti 10 qəpik idi. Virusdan sonra isə maskanın qiyməti qaldırıldı. Hazırda əksər aptekdə maskanın satış qiyməti 30-50 qəpik arasında dəyişir. Onu da nəzərə almaq lazımdır ki, ölkəmizdə maska istehsal olunur. Maraqlıdır,

*"...maya dəyərindən də baha qiymətə satılması arzuolunan hal deyil"*

yerli istehsalat olduğu halda, onun satış qiyməti niyə pandemiyadan əvvəl olduğu kimi 10 qəpiyə satılmır?

Marketinq və strateji planlama üzrə mütəxəssis Alxan Xələfovun sözlərinə görə, əsas məqsəd virusa qarşı aparılan mübarizədə dövlətin vətəndaşın yanında olduğunu göstərməkdir: "Qoruyucu maskaların vətəndaşlara baha qiymətə satılması virusla mübarizədə effektiv nəticələrin əldə olunmasına əngəl törədir. Statistikaya əsasən, Azərbaycanda gündəlik tibbi maska istehsalı 500 min, satışı isə 300 min ədəddir. Tələbatın çox olması qiymət artımına səbəbdir. Məlumat üçün bildirim ki, virusdan öncə maskanın satış qiyməti 7 qəpik idi. Hazırkı durumda maskanın 30 qəpiyə, hətta öz çalışanları üçün maska almalı olan şirkətlərə maya dəyərindən də baha qiymətə satılması arzuolunan hal deyil. Bu məsələdə Türkiyənin nümunəsini nəzərə alaraq, maskanın vətəndaşlara pulsuz verilməsi doğru addım olardı. Burada əsas məqsəd virusa qarşı aparılan mübarizədə dövlətin vətəndaşın yanında olduğunu göstərməkdir. Biz həqiqətən də virusla mübarizə aparmaq və iqtisadi güc əldə etmək istəyiriksə, maskalar vətəndaşlara pulsuz verilməlidir. Bu addım həm virusa yoluxma hallarının, həm də xəstələr üçün xərclənən vəsaitin tədricən azalmasına təsir göstərəcək".

*Günel CƏLİLOVA*

# Bakıda sosial məsafə və maska taxmaq normasının pozuntusu yenə baş alıb gedir - taleyimiz yenə vətəndaş məsuliyyətsizliyindən asılı vəziyyətə qayıda bilər

**Xüsusi karantin rejiminin yumşaldılması səbəbilə artıq iyunun 1-dən etibarən iri ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyəti bərpa olunub. İki aydan çoxdur qapıları alıcıların üzünə bağlı qalan ticarət mərkəzlərində, az da olsa, canlanma hiss olunur.**

## **Azər Allahverənov:** *"Hər bir ticarət mərkəzinin rəhbəri, ilk növbədə, zəruri təhlükəsizlik tədbirlərini həyata keçirməlidir"*



*"...həmin müəssisə sahibkarlarının üzərinə mühüm məsuliyyət düşür"*

Nazirlər Kabinetinin göstərişlərinə əsasən, fəaliyyəti bərpa olunan "Mall"ara maska və əlcəksiz daxil olmaq qadağandır. Məlumata görə, "Mall"arın hər bir girişi mühafizə xidmətləri tərəfindən nəzarətdədir. İçəri daxil olarkən hökmən vətəndaşın əlində əlcək, üzündə isə maska olmalıdır. Ticarət mərkəzindən olan bütün icarədarlara yazılı şəkildə bildirişlər olunub. Bildirişdə qeyd olunub ki, heyət maska və əlcəklərdən istifadə etsin. "Mall"arda audi və videoşüarlar səsləndirilir, davranış qaydaları və gigiyenaya nəzarət edilməsi bildirilir.

O da qeyd olunur ki, "Mall"ların mühafizə xidmətinin əməkdaşları daxildə maskasız şəxs aşkar edərlərsə, onlardan yenidən taxmaları tələb olunacaq.

Bu qayda tək "Mall"ar üçün deyil, fəaliyyətinə icazə verilən digər iri alış-veriş mərkəzləri üçün də nəzərdə tutulub. Məlumdur ki, ölkədə miqyasına görə ən böyük alış-veriş mərkəzi "Sədərək" və "Binə" ticarət mərkəzləridir. Qeyd olunan ticarət mərkəzlərində çalışan işçilərin mütləq tibbi maska və əlcək taxması tələb olunur. Ancaq təəssüf ki, iri ticarət mərkəzlərində nə sosial məsafəyə riayət edilir, nə də qoruyucu vasitələrdən istifadə olunur.

Ekspert Azər Allahverənov qeyd etdi ki, insanların ticarət obyektlərində sosial məsafəni gözləmələri, onların qoruyucu maskalardan istifadə etmələrinə stimul yaratmaq istiqamətində həmin müəssisə sahibkarlarının üzərinə mühüm məsuliyyət düşür: "İnsanların sıx olduğu yerlərdə sosial məsafənin gözlənilməsi və qoruyucu vasitələrin taxılması olduqca vacib məsələdir. Zaman-zaman nəinki market və ticarət mərkəzlərində, hətta ictimai nəqliyyatda da əksər hallarda sosial məsafənin gözlənilmədiyinin, habelə qoruyucu vasitə olan maskaların taxılmadığının, əlcəklərin geyilmədiyinin də şahidi oluruq. Belə vəziyyət isə, təbii ki, pandemiyanın yayılmasına birbaşa səbəb olan amillərdir. Son günlər iki dəfə ticarət mərkəzində sosial məsafəni gözlədiyim halda, digər bir neçə vətəndaşın gəlib qarşıma keçərək kassa ilə aramda yenidən sıxlığa gətirib çıxaran mənzərənin yaranmasına səbəb olduqlarının şahidi oldum. Bu da məhz sosial məsafənin gözlənilməməsinin nəticəsidir. Sərnişin nəqliyyatında da analoji vəziyyət hökm sürür. Şahidi oldum ki, sərnişinlər məsafə gözləmədən avtobusun içinə doğru daxil olmağa çalışırdılar. Həmçinin, avtobusda olanların əksəriyyəti maska taxmır. Bunlar hamısı xoşagəlməz hallardır. Digər tərəfdən, artıq ticarət mərkəzləri, "Moll"ar da açılıb. Belə olan halda, təəssüf ki, həmin obyektlərdə də eyni mənzərənin yaşanacağına əminəm.

Bu fonda hər bir ticarət mərkəzinin rəhbəri, ilk növbədə, zəruri təhlükəsizlik tədbirlərini həyata keçirməlidir. Ən azından, ticarət mərkəzlərinin girişində müxtəlif məlumatlandırıcı lövhələr asılmalıdır. Sosial məsafələri göstərən elanlar və zolaqlı xətlər qoyulmalıdır. Başqa bir tərəfdən, bütün ticarət mərkəzlərində texniki vasitələrlə səsli mesajlar verilməlidir. Ərəb ölkələrində yayımlanan reportajlarda gördüm ki, bu dövlətlərdə fəaliyyət göstərən ticarət mərkəzlərinin qarşısında quraşdırılan xüsusi videokameralar vasitəsilə görüntülər verilir. Nəticədə ticarət mərkəzinə daxil olan hər bir şəxs həmin kameraların önündən keçir. Buradakı nəzarətçi nəticədə ticarət mərkəzinə daxil olan şəxsin sağlamlığı, temperaturu barədə informasiya əldə edir. Belədə, hər hansı bir şəxsdə xəstəlik əlamətləri üzə çıxarsa, o dərhal obyektdən uzaqlaşdırılır və ondan müvafiq qaydada analizlər götürülür. Bu kimi tədbirlər beynəlxalq praktikada var. Azərbaycanda da fəaliyyəti bərpa olunan ticarət və digər obyektlər belə tədbirlərdən istifadə etməlidir".

Həmsöhbətimizin fikrincə, bu zaman mümkün resurslardan istifadə etmək daha vacibdir: "Hökumət istəmir ki, ticarət mərkəzləri uzun müddətə qapalı qalsın və minlərlə insan işsiz olsun. Yəni həmin məntəqələrin açılması ehtiyacdan doğaraq vacibdir. Bəlli məsələdir ki, onların əvvəlki fəaliyyətlərini bərpa etməsi üçün bir neçə ay zaman lazımdır. Yəni hökumət əhalinin müxtəlif qrupları və özəl sektoru anlayaraq bu addımı gedib. Belədə, vətəndaşlarımız da bunu anlaşıqlı qəbul etməli və müəyyən olunmuş qaydalara uyğun davranmalıdırlar. Yəni ticarət mərkəzlərinin sahibi olan sahibkarlar da zəruri təhlükəsizlik tədbirlərinin həyata keçirilməsindən çəkinməməlidir. Ola bilər, bu proses müəyyən məsrəf tələb etsin. Amma düşünürəm ki, burada istənilən məsrəf və gəlirdən üstün əhalinin sağlamlığı məsələsidir. Heç bir sahibkar istəməz ki, idarə etdiyi müəssisədə kiminsə hansısa bir səhlənkar davranışı virusa yoluxmanın miqyas almasına gətirib çıxarsın. Düşünürəm ki, sadaladığım bu kimi məsələlər daim nəzərdə saxlanmalıdır. Ümid edirəm ki, qaydalara əməl edilsə, müsbət nəticələr əldə olunacaq. Bu addımlar pandemiyanın yayılmasının qarşısının alınmasına və yayılmamasına gətirib çıxaracaq, münbit şəraitin təşkilinin şahidi olacağıq. Buna, ən azından, ümid edirəm".

***Günel CƏLİLOVA***

# Həftəsonu karantin dövrünün dəhşətli "çörək israfçılığından" nəticə çıxarmaq lazımdır...

**Qiymət Məhərrəmli:** *"...çörəyin zibilliyə atılması böyük mənəvi cinayətdir"*

**Azərbaycanın 4 şəhərində və bir rayonunda keçən həftənin sonunda tətbiq edilən ikigünlük sərt karantin rejimi vətəndaşların həm nümunəvi, həm də qeyri-nümunəvi davranışları ilə yadda qaldı.**



Ötən həftənin ortalarında sözügedən rayon və şəhərlərdə tətbiq ediləcək ikigünlük sosial təcrid barədə qərar açıqlanan kimi, bir çox vətəndaş supermarketlərə üz tutdu.

Həmin günlərin ən yaddaqalan xoşagəlməz mənzərələrindən biri vətəndaşların normadan artıq çörək alıb evlərinə daşıması ilə bağlı oldu. Sanki belə təsəvvür yaranırdı ki, guya karantin rejimi heç zaman bitməyəcək və əhali "acından öləcək".

Məlumdur ki, hətta bir çox supermarketlərdə ucu-bucağı görünməyən çörək növbələri yaşandı və hətta 20-30, bəzən daha artıq çörək alıb kisələrlə evlərinə daşıyanlar da oldu. Amma gəlin görək, vətəndaşlarımızın çörək israfçılığı nə ilə nəticələndi? Sirr deyil ki, bəzi vətəndaşlar onların ucbatından çörək ala bilmədilər, ya evdə çörək bişirdilər, ya da polis tərəfindən çörəklə təmin olundular. Həftəsonu karantin rejimi bitdikdən sonra isə vətəndaşların mağazalardan daşıdığı çörəkləri çox təəssüf ki, qalaq-qalaq zibilliklərdə gördük. Çörəyin bütöv şəkildə zibilliyə atılması nə deməkdir? Bir vətəndaşın bu cür israfçılığa yol verməsi həm mənəvi, həm maddi, həm də digər baxımlardan yolverilməz olsa da, bu acı mənzərəni yaşamalı olduq.

Filologiya üzrə fəlsəfə doktoru, tədiqatçı-alim Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə bildirdi ki, çörəyə qarşı bu münasibət normal hal sayıla bilməz. Azərbaycan xalqının keçən əsrin 90-cı illərinin əvvəllərində çörəklə imtahana çəkildiyini xatırladan Q.Məhərrəmlinin sözlərinə görə, o vaxt 300-500 qramlıq çörək əldə etmək üçün insanlar saatlarla çörək mağazalarının, çörəkbişirmə sexlərinin qarşısında növbədə dayanırdılar. Bunun bəzi vətəndaşlar üçün dərs olmadığını deyən Q.Məhərrəmlinin sözlərinə görə, çörəyin əlçatanlığı tam olaraq dövlət tərəfindən təmin edildikdən və kifayət qədər bolluq yaradıldıqdan sonra vətəndaşların çörəyə sayğısı sanki azaldı. "Bu gün zibilliklərə atılan çörək qalıqlarını müşahidə etdikcə ürəyim ağrıyır. Çox təəssüf ki, bir sıra vətəndaşların çörəyə münasibəti bu cürdür. Pul verib yeyə biləcəyi normadan artıq çörək alır, amma çörək köhnəldikdən sonra onu istifadə etmək əvəzinə, zibilliklərə atırlar. Bizim bütün zibilliklərdə ən çox müşahidə edilən "tullantı" məhz çörəkdir. Niyə, hansı səbəbə? Biz çörəyin qədrini başqa xalqlardan daha çox bilməliyik. Bu həm mənəvi məsələdir, həm də biz keçən əsrin 90-cı illərinin əvvəllərində çörək böhranı ilə üzləşmişik, o çətin günləri yaşamışıq. Amma bu gün o çətinliklər yoxdur, ölkəmizdə çörək bolluğudur, amma bu bolluqda da israfçılığa yol verənlər var. İkigünlük həftəsonu karantin rejimi müddətində o qədər çörəyin alınmasına nə ehtiyac vardı ki, sonra da çörəyi "tullantı" kimi zibilliyə atırlar. Dövlət karantin rejimi elan edirsə, bütün variantları təhlil edir və vətəndaşın xeyrinə qərar verir. Hesab edirəm ki, çörək israfçılığına maddi və mənəvi baxımdan haqq qazandırmaq olmaz və çörəyin zibilliyə atılması isə böyük mənəvi cinayətdir".

*"Vətəndaşlarımız çörək israfçılığından hərtərəfli nəticə çıxarmalıdırlar"*

Q.Məhərrəmli vurğuladı ki, vətəndaşların ikigünlük sosial izolyasiyaya cəlb edilməsi, onların evdə qalması virusun yayılmasının azalması deməkdir və bütün vətəndaşlar bunu nəzərə almalıdır. "Düşünürəm ki, vətəndaşlar çörəyə yalnız qarnını doyuracaq bir qida vasitəsi kimi baxmamalıdır, ona müqəddəs and yeri kimi yanaşmalı, onun mənəvi qiymətini bilməlidirlər. Vətəndaşlarımız çörək israfçılığından hərtərəfli nəticə çıxarmalıdırlar. Çörəyə münasibət ulu babalarımızın ona verdiyi dəyər kimi qəbul edilməlidir" - deyə Q.Məhərrəmli qeyd etdi.

***İradə SARIYEVA***

# Azərbaycanda əmanətlərin sığortalanması üzrə yeni model?...

**"Əmanətlərin sığortalanması ilə bağlı yeni strateji baxışı ilin sonuna kimi formalaşdıracağıq". Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmov media nümayəndələrinə açıqlamasında deyib. O qeyd edib ki, hazırda Əmanətlərin Sığortalanması Fondu ilə birlikdə bu müzakirə edilir.**



**Vüqar Bayramov:** *"Əmanətlərin sığortalanması ilə bağlı mexanizmin təkmilləşdirilməsinə ehtiyac var"*

**Samir Əliyev:** *"Əmanətlərin tam sığortalanması qərarı həssas vaxtda verilmiş düzgün qərar olsa da..."*

Onun iqtisadiyyata, əmanətçilərə mümkün təsirləri qiymətləndiriləcək.

Məlumat üçün bildirək ki, hazırda qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi manat üzrə 12%, xarici valyuta üzrə isə 2,5% təşkil edir.

Maraqlıdır, əmanətlərin sığortalanması üzrə yeni qanunvericilikdə hansı dəyişikliklərin və əlavələrin olunası gözlənir?

Millət vəkili Vüqar Bayramov bildirdi ki, əmanətlərin sığortalanması ilə bağlı mexanizmin təkmilləşdirilməsinə ehtiyac var. Çünki, indiki halda, Azərbaycanda əmanətlərin tam sığortalanması birbaşa dövlətin məsuliyyətindədir. Lakin bu sahədə bankların öhdəliyinin artırılmasına ehtiyac var: "Bankların prosesə cəlbi ilə büdcə vəsaitlərinə qənaət etmək mümkün olacaq. Belə ki, təkcə ötən ay bağlanan 4 bankda 680 milyon manat sığortalı əmanət var. Əmanətlərin Sığortalanması Fondu isə hazırda bunun yalnız 200 milyon manatını qaytarmaq üçün vəsaitə malikdir. Qalan 480 milyon manatı isə Mərkəzi Bank fonda kredit kimi verəcək. Odur ki, bu ilin sonuna qədər Mərkəzi Bankın valyuta ehtiyatlarında azalma gözlənir".

İqtisadçı-ekspert Samir Əliyev qeyd etdi ki, əmanətlərin tam sığortalanması qərarı həssas vaxtda verilmiş düzgün qərar olsa da, artıq bu mexanizmdən imtina etməyin vaxtı çatıb: "Pandemiyaya görə əmanətlərin tam sığortalanması müddəti növbəti dəfə uzadıldı. Lakin düşünürəm ki, bundan sonra əmanətlərin tam sığortalanması sistemindən imtina etməli və yenidən limitli kompensasiyaya qayıtmalıyıq. Qanun qüvvədən düşdükdən sonra kompensasiya 30 min manat olacaq. Düşünürəm ki, kompensasiya məbləğini 2 dəfəyə yaxın artırmaq lazımdır. Kompensasiya məbləği 50-70 minə qədər müəyyən oluna bilər.

İkinci məsələ əmanətlərin verilməsi müddətinin reqlamentləşdirilməsi və dəqiqləşdirilməsidir. İnkişaf etmiş ölkələrdə bununla bağlı müddətlər mövcuddur. Məsələn, əmanətçilər sığorta hadisəsindən 3 və ya 5 gün sonra əmanətini ala bilir. Bizdə isə bir həftə ərzində əmanətin geri qaytarılma müddəti ilə bağlı məlumatın veriləcəyi deyilir. Məsələn, "Amrahbank" və "Atabank"ın bağlanması ilə aprelin 28-də sığorta hadisəsi baş verdi. Kompensasiyanın verilməsinə isə iyunun 1-də başlandı ki, bura bütün əmanətlər yox, 30 min manata qədər olan əmanətlər daxildir. Sığorta hadisəsindən sonra kompensasiyaların ödənilməsinə qədər 1 aydan çox vaxt keçib. Əmanətlərin qaytarılması üzrə müddət dəqiq olmalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, xarici valyutada olan əmanətlərin sığorta faizi aşağı salınmalıdır: "Əmanətlərin Sığorta Fonduna üzv olan banklarda xarici valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 2,5 faiz təşkil edir. Bu faiz dərəcəsini 1 faizə qədər aşağı endirmək lazımdır ki, insanlar milli valyutada əmanət yerləşdirməyə meylli olsunlar. Düşünürəm ki, yanaşmalar bundan ibarətdir.

Təkliflərdən biri də sığortalanmanın əhatə dairəsini genişləndirməkdir. Hazırda fond tərəfindən fiziki şəxslərin cari hesabları və əmanətləri qorunur. Lakin, həmçinin, fərdi sahibkarların cari hesabları, hüquqi şəxslərin depozitləri qorunmalıdır. Bunlar qorunan əmanətlər sırasına daxil edilməlidir".

***Günel CƏLİLOVA***

№ 91 (4222) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

10 İYUN 2020-ci il

www.baki-xeber.com

# Depressiyanın müalicəsində inqilabi yenilik...



**Elektroensefaloqrafiya depressiyanın müalicəsində nə qədər effektivdir? Depressiya hazırda ən çox rast gələn psixi pozğunluqdur. Travmatik vəziyyət, uzunmüddətli stress, narkotik maddələrdən istifadə və digər səbəblər depressiyaya yol aça bilər.**

Hətta günəş işığının olmaması da depressiv vəziyyətə gətirib çıxarır. "Milli.Az" xəbər verir ki, elektroensefaloqrafiya ilə depressiyanın müalicəsində effektiv nəticələr əldə ediləcəyi açıqlanıb. Depressiya əhval-ruhiyyənin, bədən tonusunun aşağı düşməsi, fiziki cəhətdən zəiflik və zehni pozğunluq şəklində özünü göstərir. Eyni zamanda, digər pozğunluqların gedişini pisləşdirə və geridönməz nəticələrə səbəb ola bilər. Problem ondadır ki, bəzi pasiyentlər müxtəlif vəziyyətlərdə mütəxəssis yardımına ehtiyac duymur. Çevrəsinin qınaqları depressiv əhvalı-ruhiyyəni daha da dərinləşdirir. Psixoloji dəstəyin olmaması nəticəsində xəstə ikinci dərəcəli pozğunluqların inkişaf mərhələsində olduqda müalicə təyin olunur. Kimyəvi səviyyədə depressiya bütöv molekulyar dəstədir. Bu, eyni zamanda, melaton, adrenalin və norepinefrinin artması ilə serotonin, dopamin və endorfinin kəskin çatışmazlığıdır. Zəruri siqnalları beyinə ötürmək üçün cavabdeh olan neyrotransmitterlərin olmaması səbəbindən lazımi hormonlar "ifraz olunmur". Bədən "qənaət" vəziyyətinə keçir. Molekulyar zərərin bərpası XX əsrin ortalarından bəri istifadə olunan sedativ inhibitor qrup dərmanlarla edilə bilər. Problem ondadır ki, depressiyanın və əlavə simptomların müalicəsində əks təsirləri qiymətləndirmək çox çətindir. Sakitləşdirici inhibitorlar qrupunda bir çox dərman var və düzgün birini tapmaq həmişə çətindir. Hətta klinik sınaqlarda da effektivlik yüksək olmayıb və bəzi hallarda plasebo effektindən yüksək deyil. Dərman, sadəcə, uyğun gəlməyə bilər. Bu vəziyyətdən çıxış yolu - müəyyən dərman terapiyasının təsirinin olub-olmadığını əvvəlcədən bilməkdir. Bunu etmək üçün dərmanın beyinə təsir gücünü öyrənməlisiniz. Amerikalı elm adamları depressiyanın antidepresantlarla (xüsusən də sertralin) beynin istirahət fəaliyyətinə əsaslanaraq təsirini proqnozlaşdıran bir sxem hazırlayıblar. Bunun üçün tədqiqatda müəyyən səviyyəli depressiv pozğunluğu olan 309 xəstəyə lektroansefaloqrafiya (EEQ) tətbiq olunub. İştirakçılar 2 qrupa bölünüb, onlardan biri antidepresant, digəri isə plasebo qəbul edib. Beyin fəaliyyətinin EEQ göstəriciləri kursdan əvvəl və sonra qeydə alınıb. Tədqiqat zamanı mütəxəssislər dərman vasitəsinin effektivliyini təyin etmək üçün alqoritm proqramı hazırlayıb. Yaradılmış reqressiya modelindən istifadə edərək alqoritm beynin istirahət fəaliyyətində müalicə səmərəliliyi arasındakı əlaqəni təcrid etməyə imkan verib. Antidepresant terapiyası alan qrup alfa dalğasında aktivlik göstərib.

Bu da terapiyanın effektivliyini təsdiq edib. Plasebo qrupunda isə təsir aşkar edilməyib. Təcrübənin dəqiqliyi üçün daha 100 xəstə sınaqdan keçirilib. Və bu vəziyyətdə, EEQ istifadə edərək sertralin ilə depressiyanın müalicəsində mümkün olan effektivliyi təxmin etmək mümkün olub. Bu elmi kəşf depressiyanın müalicəsində nə qədər effektivdir? Əvvəlcə EEQ əsasında dərman müalicəsinin mümkün effektivliyinin sadə və əlverişli təhlili hazırlanıb. İkincisi, əlaqə olaraq ayrı sinir mexanizmi - alfa dalğasında beynin istirahəti zamanı fəaliyyəti araşdırılıb. Bu, depressiya üçün digər müalicələri uğurla qiymətləndirməyə imkan verir. Ən əsası psixoterapiyanın köməyi ilə depressiyanın müalicəsinin effektivliyini EEQ-nin köməyi ilə uğurla qiymətləndirmək mümkündür. Üstəlik, hansının daha effektiv olacağını proqnozlaşdırmaq tamamilə mümkündür - psixoterapiya və ya dərman müalicəsi. Məlumat üçün bildirək ki, elektroensefaloqrafiya və ya EEQ - baş beynin summar elektrik aktivliyini qeydə almaq və qiymətləndirmək üçün istifadə olunan nevroloji müayinə metodudur. Baş beynin elektrik aktivliyi çox aşağı olduğuna görə onu qeydə almaq üçün elektroensefaloqraf adlandırılan xüsusi yüksək həssaslığa malik qurğulardan və gücləndiricilərdən istifadə olunur. EEQ daha çox epilepsiya xəstəliyinin diaqnozunun qoyulmasında istifadə olunur. EEQ bəzi hallarda komalar, beyin ölümü, yuxu pozulmalarının, ensefalopatiyaların diaqnostikasında istifadə olunur. Rutin EEQ çəkilməsi 20-30 dəqiqə davam edir.

## Koronavirusu sağaldan nadir kəşf...

**Koronavirus xəstəliyi ağ ciyərlər ultrabənövşəyi şüalarla dezinfeksiya olunaraq müalicə edilə bilər. "Milli.Az" xəbər verir ki, bu barədə Rusiya Atom Enerjisi Agentliyinin (Rosatom) məşhur elm mərkəzlərindən biri olan Leypunsk Fizika və Enerji İnstitutunun (FEI) mütəxəssisləri açıqlama yayıb.**

FEI-nin müdiri Andrey Qoverdovski bu layihəyə "parlayan qaz" adını verdiklərini bildirib: "İndiyə qədər heç kim insanın daxilini ultrabənövşəyi şüalarla dezinfeksiya etməyi bacarmayıb.

Biz bunu necə edə biləcəyimizi tapmışıq". O bildirib ki, elm adamları tənəffüslə daxil olanda aktiv qala bilən və ciyərlərə birbaşa ultrabənövşəyi şüa əks etdirən molekul və qaz birləşmələrini müəyyən ediblər. Onun sözlərinə görə, bu metod, koronavirusla yanaşı, tuberoskleroz, onkoloji və başqa xəstəliklərin müalicəsində də istifadə edilə bilər.


## Elan

Şəki şəhər sakini İbadov Elşad Sirac oğlunun adına verilmiş 404013006713 saylı reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Tahirov Ehtiram Ağaşirin oğluna verilən AA1138220 seriyalı şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Səttarov Aleksey Vladimiroviçə məxsus, Bakı şəhəri, Suraxanı qəsəbəsi, S.Bəhlulzadə küçəsi, ev 1 ünvanının qeydiyyat vəsiqəsi (seriya FM N012774) itdiyi üçün etibarsız sayılır.






**Qoç** - Enerjili, aktiv olun. Qətiyyətli davranın, iradəli qərarlar verin. Çətin işi yerinə yetirmək üçün tərəfdaş və ya yardımçı cəlb etsəniz, daha yaxşı nəticələrə nail ola bilərsiniz. Sükan arxasında çox vaxt keçirməyin.



**Buğa** - Dünənki situasiyanın davamı olan hadisələrin axarını öz xeyrinizə çevirin. Faydalı əlaqələr qurun. Yaxın gələcəkdə karınıza gələ biləcək təmaslarda aktiv olun. Xırdalıqlara diqqət yetirin.



**Əkizlər** - Səhər saatlarından etibarən süst və tənbəl olmayın. Müzakirələr, informasiya axtarışları, texnika ilə bağlı iş, təmir, quraşdırma və avadanlıqların yenilənməsi zamanıdır. Fiziki işlə də məşğul olmaq olar.



**Xərçəng** - Tərəfdaş və ya həmkarlardan biri ilə yeni əməkdaşlığa başlamaq olar. Müzakirə və diskussiyaların vaxtını uzatmayın. Sözdən işə keçmək zamanıdır. Ailənin maraqlarını ön plana çəkin.



**Şir** - Günün ilk yarısında qeyri-standart məsələləri həll etmək məcburiyyətində qalacaqsınız. Aktual məqamla bağlı kollektiv mövqenin formalaşdırılması, diskussiyanın başa çatdırılması üçün əlverişli zamandır.



**Qız** - İşlərinizi qaydaya salın, yaranan problemləri növbə ilə həll etməyə can atın. Alış-veriş üçün əlverişli zamandır. İndiyədək görməyi unutduğunuz işləri başa vurun. İşlərlə bağlı olaraq harasa yollanmaq gərək olacaq.



**Tərəzi** - Əhvalınızdakı müvazinəti pozmayın, bədbinliyə qapılmayın. Üzləşdiyiniz çətinlikləri başqalarından yardım istəmədən, kənardan kömək gözləmədən həll edin. Müstəqil olun, kimsənin qarşısında əyilməyin.



**Əqrəb** - Səhər saatlarından etibarın başqalarının problemi ilə məşğul olmaq o qədər də yaxşı seçim deyil. Öz maraqlarınızı unutmayın. Mənafelərinizi başqalarının istəklərinə qurban verməyin.



**Oxatan** - Günün ilk yarısında tənha qalmayın. Ümumi məqsədə doğru tərəfdaşlarla və şəriklərlə irəliləmək olar. Həmfikirlərin dediklərinə qulaq asın. Saatlar keçdikcə, sadəcə, tərəfdaş rolu ilə barışmaq istəməyəcəksiniz.



**Oğlaq** - Cari və rutin işlər bir qədər darıxdırıcı olsa da, onları yerinə yetirmək gərəkdir. Yarımçıq işlər irəliləyişinizə maneələr yaradacaq. Yaşananlara neytral, emosiyalar olmadan yanaşmaq çox çətindir.



**Dolça** - Səhər saatlarından etibarən təşəbbüskar olun, bilik və bacarıqlarınızı nümayiş etdirin. Saatlar keçdikcə fəaliyyət tempini aşağı salmayın. Qüvvənizə inanın. Qarşılıqlı münasibətlərdə pozitiv məqamlar olacaq.



**Balıqlar** - Şəxsi münasibətlərdəki problemləri aktiv şəkildə həll edin. Yaxın ətrafınızdakı insanlara, xüsusilə də ailə üzvlərinə güzəştlərə gedin. Onların yardım istəklərini qulaqardına vurmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Əməkdar artist 350 minlik maskasına görə tənqid olundu

**Rusiyanın Əməkdar artisti, müğənni Nataşa Korolyova 350 minlik (təxminən 8715 manat), dizayner rəfiqəsi tərəfindən məxsusi olaraq onun üçün hazırlanmış maskasına görə sosial şəbəkə istifadəçiləri tərəfindən tənqid olunub.**

"Qafqazinfo" xəbər verir ki, buna səbəb onun həyat yoldaşı, Tarzan ləqəbli aktyor və bodibilder Sergey Qluşkonun "Teleproqramma" nəşrinə müsahibəsində dediyi bu sözlər olub:

"Evdə oturan və pensiya alan nənə və babalardan fərqli olaraq, biz artistlərin bir qəpiyi də yoxdur". "Nataşa Korolyovanın maskası 350 min rubldur.

**Və bu insanlar pulsuzluqdan şikayətlənirlər?", "Görünür, insanları lap avam yerinə qoyublar: bu cür maskalarla öyünürlər və dövlətdən kömək istəyirlər", - deyə sosial şəbəkə istifadəçiləri özlərindən çıxıblar.**

*Hazırladı: Namiq QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.